**Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!**




Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 50 (24.432)

14 dekabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Vətənə fəda edilmiş ömür



Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn dahi şəxsiyyət Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş ittifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Ulu Öndərə etibar etdi. Bu, böyük Qayıdış idi və Ümummilli Lider müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Nə qədər ki Azərbaycan yaşayır, dahi şəxsiyyət Heydər Əliyev də yaşayacaq və var olacaqdır. O, ***"Azərbaycan mənim həyatımın mənasıdır"***, – deyirdi. Azərbaycanımız qüvvətləndikcə, ölkəmizin iqtisadi qüdrəti artdıqca, suverenliyi, ərazi toxunulmazlığı bərpa olunduqca, hər bir vətəndaşımızın rifah halı yaxşılaşdıqca, Onun mənəvi ömrü də uzanacaq, daim bizimlə olacaqdır.

Ümummilli Lider Heydər Əliyev xalqımıza iki əmanət qoyub getdi: Azərbaycanı və özü qədər inandığı, yarımçıq qalmış işlərini başa çatdırmağı etibar etdiyi cənab İlham Əliyevi.

Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir. O bu əsərin tamamlanması, daxili və xarici müdaxilələrdən qorunması, özünə layiq yer tutması üçün bütün enerjisini sərf edirdi. Azərbaycançılıq yolu Onun üçün müqəddəs yol idi. Hətta lazım gələrsə, bu yolda canını qurban verməyə də hazır idi. Məhz bunun sayəsində, heç kimin təsəvvürünə gətirə bilmədiyi fədailiyi nəticəsində O, Azərbaycan adlı ümumi evimizi tikib başa çatdırdı, tarixin səhnəsindən silinməyə qoymadı. Möhkəm dövlətçilik təməlinə və ənənəsinə söykənən müstəqil Azərbaycan görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımızın bugünkü və gələcək nəsillərinə ən qiymətli töhfəsidir.

Səhifə ⇨ 2

# Vətənə fəda edilmiş ömür



(əvvəli 1-ci səhifədə)

Azərbaycan xalqı öz Ümummilli Liderini qoruyub yaşatdığı kimi, dahi şəxsiyyət Heydər Əliyev də Azərbaycanı hifz edib, yaşadıb, ən yüksək zirvələrə çatdırıb. Onun siyasi tərcümeyi-halı Azərbaycanın 35 illik quruculuq tarixini əhatə edir. Bu tarixi inkişafın altında yalnız bir şəxsin, xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyevin möhürü vardır. Haqlı olaraq bu dövr tarixdə "Heydər Əliyev dövrü" adlandırılır. Məhz bu zaman kəsiyində Azərbaycan özünün həqiqi inkişafına və sabitliyə nail olub, güclü ordusu, iqtisadiyyatı, milli dövlətçiliyi, peşəkar kadrları, illik büdcəsinə bərabər valyuta ehtiyatları olan, dünyanın aparıcı dövlətlərinin regional maraqlarını özünün milli maraqlarına tabe etdirməyi bacaran dövlətə çevrilib. Xalqımız bu inkişafı dahi Heydər Əliyevin tarixi quruculuq missiyasının bəhrəsi kimi yüksək qiymətləndirərək öz böyük oğlunun yoluna sadiq qalacağını daim nümayiş etdirib, bu gün də nümayiş etdirir. Azərbaycan-Heydər Əliyev, Heydər Əliyev-Azərbaycan mənəvi bağlılığı elə möhkəmdir ki, onları bir-birindən ayırmaq mümkün deyil.

Ümummilli Liderimiz Heydər Əliyev öz xalqının gələcəyi uğrunda apardığı mübarizədə bütün çətinliklərə sinə gərərək hər bir azərbaycanlının firavan istiqbalını, rifahını, azadlığını təmin etdi. Dahi rəhbər xalqımızın milli-mənəvi şüurunu alovlandıraraq, məqsədyönlü tədbirlər, hərtərəfli islahatlar həyata keçirərək ölkəmizin qısa müddətdə inkişafını və dünyada tanınmasını təmin etdi. Bu gün Azərbaycan adı səsləndikcə, bayrağımız yüksəklərdə dalğalandıqca xalqımızın qurtuluşu, azadlığı, rifahı bütün dünya dövlətləri arasında yaxşı mənada müzakirə edilir.

Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Ulu Öndərimizə borclu sayır. Bu da bir həqiqətdir ki, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrilib. ***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"***, – deyən Ümummilli Liderin yaratdığı Azərbaycan Onun müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: ***"Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".***

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini Onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu Öndərimizin apardığı siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Ümummilli Liderimizin bütün ömrü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçmişdir. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır. Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – Ulu Öndərin davamçıları Onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

**Turan MƏMMƏDLİ**

# Ayrılmaz ki, könül candan

"Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan!" – bu iki misranı dilə gətirəndə Onun səsindəki titrəyişi bütün zal hiss etdi həmin gün. Bəlkə də, ürəyi, həyatı dediyi Azərbaycandan ayrılacağını hiss etdiyi üçün səsi titrədi dahi İnsanın. Bəlkə də, nəfəsimdir, həyatımdır dediyi Vətəni üçün yarımçıq qalan xəyallarını düşünüb qəhərlənmişdi "Azərbaycan" şeirinin son misralarını dilə gətirəndə. Qurub-yaratdığı, təməl daşını belə öz əlləri ilə qoyduğu canı Azərbaycandan ayrılacağını hiss etmək dünyaya öz siyasi gücü ilə dərs keçən böyük insanı duyğulandırmışdı.

Hər dəfə həmin kadrları izləyəndə o səsdəki titrəyişi hiss etdikcə göz yaşına boğulanda başımız üstdə dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımıza baxıb "Ayrılmadı könül candan", – deyirəm. Axı necə ayrıla bilərdi ki? Könülü candan ayırmağa gücü yetməz ki, ölümün. O bütün bir xalqın xilasedicisi, atasıdır. Bu Vətənin bütövlüyü, zəfəri, xoş gələcəyidir. Onun gəlişi ilə aydınlanmışdı qaranlıq günlərimiz. Soyuq sinif otaqları işıqlı, isti məktəblərlə əvəz olunmuşdu. Yaşadığımız hər yerə düşən, uşaqları şəhid edən "alazan"ların səsi Onun gəlişindən sonra kəsilmişdi. Torpağımıza göz dikən düşmənin gözü dahi rəhbərin gəlişi ilə kor olmuşdu. İsti çörək gəlmişdi təknəmizə, soyuq qış gecələri isinmişdi. Səngərdə döyüşən əsgər O dahi şəxsiyyəti öz yanında görüb daha da cəsarətli olmuşdu. Evindən didərgin düşən insanlar Ona sığınıb təsəlli tapmışdılar. İnanmışdılar öz evlərinə dönəcəklərinə. Qardaş qanı dayanmışdı Onun gəlişi ilə. Azərbaycanı yox olmaqdan qurtarmışdı.

Biz Ona baba deyib, kölgəsinə sığınıb böyümüşdük. Uşaqlıq xatirələrimizin qəhrəmanı olmuşdu Heydər babamız. Onun sevgisi ilə gələcəyə ümidlə baxmışdıq. Necə ayıra bilərdi, ölüm könlümüzü canımızdan. Ayrılmadı heç zaman, hər addımda Onu düşündük, Onu xatırladıq. Dediyi bütün sözləri, arzuları, xəyalları gerçəyə çevrildikcə, Azərbaycan Bayrağı dünya səviyyəli tədbirlərdə dalğalandıqca, Vətənimiz abadlaşıb gözəlləşdikcə, gənclərimiz cahana səs saldıqca biz Onu düşündük ancaq. Bu xalq öz oğlunu o qədər sevdi ki, bu sevgi ölçüyəgəlməzdir. Ona görə də vaxtilə Ulu Öndərə qalxan xain əlin atdığı daşın qarşısında sipər olub dahi rəhbərini qorumuşdu. Onun əmanətini də qoruyub, ona etimad göstərməklə qalmayıb, ətrafında birləşib yumruğa dönüb düşmənin başına şimşək kimi çaxdı. Ulu Öndərin ***"Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya"*** arzusunu gerçəyə çevirdi. Laçın dağlarında, Kəlbəcərin sərin yaylaqlarında, Xocalıda, qəlbi yaralı Qarabağda Azərbaycan Bayrağını öz canı bahasına zirvələrə sancdı. Vaxtilə görkəmli dövlət xadiminin yaratdığı ordu bunu Azərbaycan xalqı ilə birləşib bacardı. Bir olub bacardı həkimi, əsgəri, kəndlisi, müəllimi... Həmin gün düşmən igid Azərbaycan əsgərinin qarşısında diz çökəndə, Şuşada azan səsi gələndə, Zəngilandan ilk toyun, ilk körpənin səsi eşidiləndə könlümüzün canımızdan ayrılmadığını bir daha gördü dünya. Hər addımda Onu düşünüb, Onu yada salıb biz bacaracağıq dedik.

O, heç vaxt köçmədi bu dünyadan, bu xalq Heydər adlı oğlunu itirmədi heç zaman. O, daim yaşadı üçrəngli bayrağımız zirvələrdə dalğalandıqca, Azərbaycan xalqı bir olduqca, Vətənimiz çiçəkləndikcə yaşadı və yaşayır.

Bu Vətənin hər daşında, torpağında Onun izi var. Çünki başımız üstdə dalğalanan müqəddəs bayraq ilk dəfə xalqın Heydər oğlunun əllərində göylərə yüksəlib. O, dirçələn, çiçəklənən Azərbaycandır. O, Qarabağda yanıb düşməni kor edən sönməz Günəşdir. O bizim könlümüzdən ayrılmayan can, ürəyimizin bitməz sevgisidir. Bu sevgi – Heydər Əliyev sevgisi bizim ürəyimizdən övladlarımıza keçib və daim yaşayacaq. Könül candan heç bir zaman ayrılmayacaq. Nə qədər ki Azərbaycan var, onun vəfalı oğlu da var olacaq. Çünki xalqın sevgisi ölməz, əbədi yaşayar. Canı Vətən olanların könlü candan ayrılmaz ki.

**Ramiyə ƏKBƏROVA**

# Həyatın özünə sığmayan İNSAN

***"Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerin Ümummilli Liderin vəfatı münasibətilə qələmə aldığı məqalə jurnalın 11.4 (2003) sayında ingilis dilində dərc edilmişdir və ilk dəfə tərəfimizdən tərcümə edilir.***



Prezident Heydər Əliyevdən aldığım bütün müsahibələr içərisində mənim ən çox yaddaşımda qalan 1997-ci ilin avqustundakı müsahibə oldu. Bu müsahibə Heydər Əliyevin ABŞ-nin dörd şəhərinə – Nyu-York, Vaşinqton, Hyuston və Çikaqo şəhərlərinə 10 günlük səfəri zamanı axırıncı günə – Hyustondan Çikaqoya uçuşuna təsadüf etdi. Müşavirlər, Nazirlər Kabineti və parlamentin müvafiq nümayəndələri, təhlükəsizlik heyətinin, təxminən, 30-a yaxın əməkdaşı, fotoqraflar, mətbuat və televiziya nümayəndələri və yeganə əcnəbi, mən də daxil olmaqla heyətin ümumi sayı 60 nəfər idi.

O, "Azerbaijan International" jurnalına müsahibə verməyə söz vermişdi. Vaxt yetişəndə məni təyyarənin Prezident üçün ayrılmış bölməsinə ötürdülər. Səyahət məsələlərində təcrübəli olduğumdan həmişə bütün uçuş boyu təhlükəsizlik kəmərini bağlayıram. Amma bu dəfə Prezident kəməri bağlamadığından mən də kəmərimi bağlamadım və onunla üzbəüz kresloya əyləşdim.

Tanrının hökmü ilə tez bir zamanda elə bil təyyarə qəsdən tufanlı havaya düşdü və silkələnməyə başladı. Müsahibəni diktafona yazdığımdan Onun diqqətini yayındırmaq istəmədim və kor-koranə əllərimlə təhlükəsizlik kəmərinin qollarını axtarmağa başladım. Və əlbəttə ki, bu Prezidentin diqqətini çəkdi. O, danışığına fasilə verdi, gülümsədi və ona xas qəribə bir yumorla dedi: ***"Narahat olma, qoymaram təyyarəmizə bir şey olsun!"*** İkimiz də güldük. Amma mən kəməri bağladım.

Bu xüsusiyyət yalnız Ona məxsus idi – yalnız Heydər Əliyev belə bir şeyi bu cürə özünəməxsus, yumoristik və məqamında söyləyə bilərdi. Lakin, məncə, bu günlərdə, Heydər Əliyevin dəfn mərasimində (15 dekabr 2003-cü il), milyonlarla azərbaycanlının Prezidentə qarşı hiss və rəğbətlərini bu cür kütləvi şəkildə ifadə etməsinin kökünü onun etdiyi həmin zarafatda axtarmaq lazımdır: "Narahat olma, qoymaram təyyarəmizə bir şey olsun!"

Görünür, Azərbaycan xalqının əksəriyyəti də – nə qədər ki Heydər Əliyev hakimiyyətdədir, xalqa zaval yoxdur – deyə düşünmüşdür. Xalqı Onu ağıllı, təcrübəli, hədsiz etibarlı siyasətçi kimi qəbul edirdi. Hər şeydən öncə O, 11 saat zonasını əhatə edən sərhədsiz sovet ittifaqının ən nüfuzlu siyasətçiləri arasında Siyasi Büroda barmaqla sayılan şəxslər sırasında olmuşdur.

Azərbaycanın sovet ittifaqında ən kiçik respublikalardan biri olmasına baxmayaraq, Heydər Əliyev həmişə özünü tanıyan və kökünə bələd olan bir insan təəssüratı bağışlayırdı. Hətta Onun rəqibləri belə sovet ittifaqının dağılmasından sonrakı ilk illərdə hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin və Qarabağ uğrunda gedən müharibənin xalqı parçalamasına imkan verməməsində Onun xidmətini etiraf edir. Çoxları üçün müstəqilliyin ilk çətin illərində Əliyev əmin-amanlıq simvolu idi.

Əliyevin son dərəcə gərgin iş rejimi var idi. Heç kim Onu "9-dan 6-ya qədər işləyən prezident" adlandıra bilməz. Saatın neçə olmasının Onun üçün əhəmiyyəti yox idi. O, həmişə iş başında idi – həmişə Prezident idi.

Xatirimdədir, ilk müsahibəmiz 1994-cü ildə olmuşdu. Onda Əliyevin 71 yaşı var idi. Biz Onun qəbuluna düşəndə çox gec idi. Müsahibə isə gecə saat ikiyə qədər çəkdi və gec olduğunu Onun nəzərinə çatdırdım. Cavab verdi ki, son 50 ildə həyatı bu cür keçir – səhər saat 10-11-də işə gəlir, yalnız axşam saat 7 ərəfəsində nahar fasiləsi götürür və yenidən gecə saat ikiyə-üçə qədər işləyir.

Yəqin ki, mən Azərbaycan müstəqillik qazandıqdan sonra Ondan ən çox müsahibə götürən qərbli – əcnəbi jurnalistəm. Onunla dəfələrlə görüşmüş, ən azından yeddi dəfə müsahibə almışdım. Axırıncı müsahibə zamanı isə O mənə dedi: ***"Elə fikirləşmə ki, mən hamıya belə tez-tez müsahibə verirəm".***

İlk müsahibəmizdən başlayaraq biz nadir hallarda mətbuatın daim maraqlandığı neft, iqtisadiyyat və müharibə mövzusunda söhbət edərdik. Və sovet müxbirlərindən fərqli olaraq mən şəxsi suallar verməyə cürət etdim. O, dil haqqında və Azərbaycan dilinin rolunun möhkəmləndirilməsi yolunda atdığı addımlardan məmnuniyyətlə söhbət açdı. Eyni zamanda O, 1980-ci ildə "Time" jurnalının təhlilləri ilə, "Heydər Əliyev rus dilində rusların çoxundan yaxşı danışır" nəticəsi ilə fəxr edirdi.

Tarixdən, xüsusilə son illərdə özünün yaratdığı müasir tarixdən məmnunluqla danışırdı. O, musiqini, incəsənəti, yaraşıqlı binaları və istedadlı, ağıllı insanları çox sevirdi. İnsanda elə fikir yaranırdı ki, O, vaxtının çoxunu ürəkdən bəyəndiyi şeyləri etməyə sərf edirdi, O, bürokratiyanın Onu bu əməlindən çəkindirməyə imkan verməmişdi. Protokol qaydalarından kənara çıxıb qeyri-adi hərəkət etmək Ona yad deyildi. Heydər Əliyevin adi jestləri – əl sıxması, başı ilə işarə etməsi, təbəssümü, səmimi görüşü belə Onun qüdrətindən xəbər verirdi.

Mənim yaddaşımda qalan digər müsahibəmiz isə 1999-cu ildə oldu. Həmin dövrdə Prezidentin ürəyində yenidən cərrahiyyə əməliyyatı aparılmışdı və Onu əvəz edəcək heç kim olmadığından əhali narahat idi. Mən Onun gələcək liderlərə xarici siyasətlə bağlı məsləhəti ilə maraqlandım.

O cavab verdi ki, onlar Onun kursunu davam etdirməlidirlər. Onun sözlərinin mənasının əcnəbilər üçün aydın olmayacağını bildiyimdən və Onun sözünü kəsmək istəmədiyimdən xahiş etdim ki, fikrini açıqlasın.

Birdən, qəfildən Əliyev yumruğunu stola vurdu – Onun bu hərəkəti ilə heç vaxt rastlaşmamışdım – və dedi: ***"Bu o deməkdir ki, əksər ölkələrdən fərqli olaraq, biz bəzi ölkələrlə dost, digərləri ilə isə düşmən ola bilmərik. Hər bir ölkənin öz marağını nəzərə almaq lazımdır. Azərbaycan heç bir dövlətlə düşmən olmaq istəmir. Eyni zamanda biz hər hansı bir ölkənin siyasətinin də qurbanı ola bilmərik. Bizim öz müstəqil siyasətimiz var. Həmçinin hal-hazırda biz Avropa və Amerika ilə sıx əlaqələr qururuq, öz milli dəyərlərimizi və kökümüzü yaşatmaqla, onların təcrübəsindən faydalanmağa çalışırıq. Gələcək liderlər mən qoyduğum yolu davam etdirməlidirlər. Əgər bunu etsələr, müvəffəqiyyət qazanacaqlar. Yox, edə bilməsələr, Azərbaycan böyük facia ilə üzləşəcək".*** Və müsahibə bu fikirlə sona çatmışdı...

İnsanlar Onu "həyatın özünə sığmayan bir insan" və böyük siyasətin ustası kimi qəbul edirlər. Şübhəsiz, Heydər Əliyev 1970-ci ildən 2003-cü ilə qədər otuzillik bir dövrün – öz dövrünün "memarı" kimi yaddaşlarda yaşayacaq...

İndi növbə gənclərindir, Onun xalqına bəxş etdiyi üstünlüklərdən bəhrələnərək, yorulmadan bu yolda can qoyaraq güclü, saf, sağlam və tərəqqipərvər millət yaratsınlar.

**İngilis dilindən tərcümə etdi:**
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# Azərbaycan tarixinin əbədiyyət zirvəsi

## və bu zirvədən güc alan Naxçıvan



Damarında azərbaycanlı qanı axan hər bir kəs qorumağa, yaşatmağa çalışır özünəməxsusluğu, fundamentallığı ilə dünyada qibtə olunan, tanınan, sevilən, seçilən, nüfuz qazanan, dosta sevinc, düşmənə gözdağı verən bu möhtəşəm, sanballı abidəni. Dahilər dahisi, siyasət sərrafı, fenomen şəxsiyyət Heydər Əliyevin gecəsini gündüzünə qataraq müxtəlif təzyiqlərə, təqiblərə, həyati təhlükələrə əzmi, iradəsi sayəsində sinə gərməklə, maneələri, fitnəkarlıqları dəf etməklə min bir zəhmətlə, yüksək və incə zövqlə kərpic-kərpic qurub-yaratdığı "Müasir, müstəqil, qüdrətli Azərbaycan" adlı şah abidənin hər naxışı uzaqgörən müəllifin zamanı qabaqlayan, onilliklərə hesablanmış bir qətiyyətli addımından, saleh əməlindən, mübarək amalından danışır. Açılan sabah, doğan Günəş özü ilə bərabər yurda uğurlar, nailiyyətlər gətirib xalqın yolunu aydınlatdıqca abidənin artan məğrurluğu, bu torpaqda doğulmaq, yaşamaq fəxarəti köksləri qürurla ehtizaza gətirir, dahi memara sonsuz minnətdarlıq hissi ilə dillərdə Ulu Öndərin mübarək kəlamı səslənir: ***"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"***

***Naxçıvanın inkişafında dönüş nöqtəsi – 1969-1982-ci illər***

"Müasir, müstəqil, qüdrətli Azərbaycan" adlı şah abidənin yaradılışında Naxçıvanın rolu, muxtar respublikanın əhəmiyyəti xüsusi diqqətə, rəğbətə layiq mövqedədir. Bəli, dahi şəxsiyyətin Naxçıvanda dünyaya göz açması, burada ilk təhsilini alması onun Azərbaycanı azad dövlət olaraq formalaşdırmaq, xalqımızı müstəqillik yoluna çıxartmaq kimi tarixi missiyasına məhz buradan başlamasının başlıca amilidir. Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyindəki nadir eskponatlardan, şəkil və rəsmi sənədlərdən məlum olur ki, Ulu Öndər muxtar respublikada mükəmməl orta təhsil alıb, əsasən də, teatra, rəssamlığa, memarlığa, ümumilikdə, incəsənətə böyük maraq göstərib. Ancaq tale elə gətirib ki, O, xalqının işıqlı gələcəyinin təmini missiyasını uğurla yerinə yetirən görkəmli dövlət xadimi kimi Azərbaycan tarixində əvəzolunmaz səhifələr yazıb. Ümummilli Lider 1994-cü ildə "Azerbaijan International" jurnalına müsahibəsində də gənc yaşlarından yaradıcılığa önəm verdiyini və Naxçıvanın onun həyatına böyük təsiri olduğunu deyib: ***"Naxçıvanın mənim həyatıma böyük təsiri olmuşdur. Mən bütün gəncliyimi orada keçirdim. Orta məktəbi orada bitirdim. Mənim çox yaxşı müəllimlərim var idi. Ciddi müəllimlər idilər. Naxçıvanda çox yaxşı təhsil aldım. Mən orada teatra çox gedərdim – Naxçıvanda əla teatr vardı".***

Ümumiyyətlə, Ümummilli Liderimiz Heydər Əliyevin həyatının bütün mərhələləri Naxçıvanla bağlıdır, dahi şəxsiyyət daim muxtar respublikanın inkişafını, gələcəyini düşünüb, buna müvafiq addımlar atıb. Azərbaycana birinci rəhbərliyi dövründə, 1969-1982-ci illərdə qədim diyarın sosial-iqtisadi, mədəniyyət, elm, təhsil və digər sahələrinin dirçəldilməsi üçün çox mühüm qərarlar qəbul edib. Naxçıvanda ali, orta, eləcə də musiqi təhsilinin formalaşdırılması, elmi institutların yaradılması da dahi şəxsiyyətin adı ilə bağlıdır. Həmçinin məlum olduğu kimi ötən əsrin 50-60-cı illərində qonşu respublikaların iqtisadiyyatında sənayeləşmə siyasəti vüsətlənmişdi. Lakin 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə Qərarı mühüm rol oynamışdır. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilib. Qısa zamanda reallaşdırılan işlərin nəticəsidir ki, 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb.

***Çıraq işartısından aydın sabahlara***

1990-cı il iyulun 22-də doğma Vətəni – canı qədər sevdiyi Naxçıvan Ümummilli Liderinə qucaq açdı, bağrına basdı naxçıvanlılar öz Xilaskarını. Qısa zamanda bu qədim diyar milli azadlıq hərəkatının mərkəzinə çevrildi, ölkəmizin müstəqilliyə doğru böyük dönüş yoluna məhz buradan qədəm qoyuldu. Ulu Öndər minlərlə naxçıvanlının coşqusu, sevgisi, məhəbbəti ilə 1991-ci il 3 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi, yuxusuz gecələrdə, çıraq işartısında qəbul etdiyi və dövlətçiliyin hüquqi bazasını təşkil edən mühüm tarixi qərarlar xalqımızı gün işığına, aydın sabahlara çıxardı. Siyasi sabitliyə xidmət edən, ölkəmizi inamlı, etibarlı gələcəyə daşıyan, dünyada qüdrətli söz, mövqe, nüfuz sahibi edən, vahid siyasi platformaya çevrilən Yeni Azərbaycan Partiyasını təsis etdi. Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordu hissələri bu ərazidən çıxarıldı. Ulu Öndər Heydər Əliyev, həmçinin milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə, 1990-cı il 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Qərar qəbul olundu. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əksini tapdı. Bununla yanaşı, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə tarixi Qərar da məhz dahi şəxsiyyəti yetişdirən torpaqda qəbul olundu.

Ümummilli Liderimiz Heydər Əliyevin doğma yurdu qarşısında tarixi xidmətlərindən ən mühümü, sözsüz ki, onun muxtariyyətini qoruyub saxlamaq və işğaldan qurtarmaq idi. Uzaqgörən siyasətçi bu məqsədlə 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyədə səfərdə oldu və səfər çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalandı. Qısa zamanda Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanıldı. Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də arzuların, ümidlərin çiçək açdığı həmin körpü istifadəyə verildi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizi müstəqilliyinə aparan yolun təməl daşlarının atıldığı mübarək türk torpağı Naxçıvanda həm də iki qardaş – Türkiyə və Azərbaycanın əlaqələrində yeni mərhələnin körpüsü salındı...

***Qazsız, işıqsız məmləkətdən tərəqqi diyarına, "yaşıl enerji zonası"na***

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasi yola sonsuz sədaqət göstərən Prezident cənab İlham Əliyev ölkəmizin bütün bölgələri ilə yanaşı, Naxçıvanın da sosial-iqtisadi inkişafı, təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm addımlar atır. Muxtar respublika son illərdə böyük inkişaf, tərəqqi yoluna qədəm qoyub, paytaxt Naxçıvan şəhərindən ta ki ucqar dağ kəndinədək müasir təhsil, mədəniyyət, səhiyyə infrastrukturu yaradılıb, ərazinin yüz faizi elektrik və qazla təchiz edilib. Qürurverici haldır ki, ölkəmizin müstəqilliyə qovuşmasında əhəmiyyətli yer tutan Naxçıvan Azərbaycanın haqq savaşına çıxdığı 44 günlük Vətən müharibəsində də mühüm rol oynadı, muxtar respublikadan olan əsgər və zabitlər torpaqlarımızın azadlığının təminində böyük şücaət və qəhrəmanlıq göstərdilər...

Dövlət başçısı 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq Naxçıvanın tərəqqisi naminə yeni yol xəritəsini müəyyənləşdirib. Dövlət Proqramının icrası ilə yaxın gələcəkdə Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq edilməsi əsas məqsədlərdəndir...

Dövlət başçısının 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı əsasında həyata keçirilən müxtəlif layihələr və tədbirlər Naxçıvanın zəngin mədəni irsinin və müasir nailiyyətlərinin dünyaya tanıdılmasında əvəzsiz rol oynayır. Eyni zamanda hazırda Naxçıvanda iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, diversifikasiyası məqsədilə mühüm layihələr reallaşdırılmaqdadır. Prezident cənab İlham Əliyevin imzaladığı Fərmanla yaradılacaq Naxçıvan Sənaye Parkı gələcəkdə müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli məhsul istehsalı, yeni iş yerlərinin yaradılması və sahibkarlığın inkişafı üçün unikal imkanlar açacaq. Bu sənaye parkı, sahibkarlara səmərəli fəaliyyət üçün zəruri infrastrukturu təmin edərək Naxçıvanın iqtisadi inkişafına töhfə verəcək, məhsulların xaricə ixracını stimullaşdıracaq.

Ölkə Prezidentinin "Naxçıvanla da bağlı böyük planlar var" ideyası üzərində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan etməsi muxtar respublikanın potensial imkanlarından maksimum yararlanmaqla sosial-iqtisadi inkişafı üçün qarşıda mühüm vəzifələr qoyub. Burada Günəş və külək elektrik stansiyalarının inşası istiqamətində böyük layihələrin icrası planlaşdırılıb. Eyni zamanda 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan Qaz Boru Xəttinin də tikintisi uğurla başa çatıb, kəmərin yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulur. Göründüyü kimi, vaxtilə işıqsız, qazsız yoxsul məmləkəti xatırladan Naxçıvan bu gün "yaşıl enerji" istehsalı, ixrac potensialına malik tərəqqi diyarına çevrilib...

Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları işığında qədim diyarın müasirləşməsi, muxtar respublikanın inkişafı gün ötdükcə daha da bariz, nümunəvi hal alır. Qədirbilən naxçıvanlılar Ulu Öndərlə birgə keçirdikləri ən çətin anları, günləri unutmur, dahi şəxsiyyətin yoluna sədaqətlə əziz xatirəsini, dəyərli fikirlərini daim hörmət və ehtiramla xatırlayırlar: ***"Mənim həyatımın müxtəlif səhifələri var. Çox şanlı-şöhrətli, eyni zamanda çox əzab-əziyyətli. Onların hər biri mənim üçün əzizdir. Ancaq 90-93-cü ildə sizinlə bərabər blokada şəraitində ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam".***

**Nail ƏSGƏROV**

# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb






Dekabrın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, deputatlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər.

Abidə önünə güllər qoyulub, Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib.



## Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ağacəkmə aksiyası keçirilib

Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi yolunun kənarında keçirilən aksiyada Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, ekokönüllülər və muxtar respublikada fəaliyyət göstərən media nümayəndələri iştirak ediblər.

Aksiya çərçivəsində 1 hektarlıq ərazidə 625 tut tingi əkilib.



## Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib



Dekabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələnin "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş) müzakirəsi olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini qeyd edib ki, 21 noyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Qanun layihəsini Ali Məclisə təqdim edib. Qanun layihəsi 11 dekabr 2024-cü il tarixdə Ali Məclisin İqtisadi siyasət komitəsinin iclasına verilib və müzakirələrdən sonra büdcə layihəsinin Ali Məclisin növbəti iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi barədə danışıb, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov qanun layihəsinin gəlir və xərc istiqamətləri barədə məlumat verib.

Azərbaycan Respublikası Hesablama Palatasının auditoru, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatını



diqqətə çatdırıb.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb, İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev komitənin rəyini bildirib.

İclasda "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla layihə üzərində işin davam etdirilməsi qərara alınıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırıb.

## Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası olub



Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun müzakirəsinin daxil edildiyini bildirib.

Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin gəlirləri 527 milyon 959 min manat, xərcləri 540 milyon manat məbləğində təsdiq edilməsi nəzərdə tutulub. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini Ali Məclisə təqdim edib.

Emin Şıxəliyev diqqətə çatdırıb ki, 2025-ci il üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsinə nəzər saldıqda gəlir mənbələri üzrə artım müşahidə olunur ki, bu da artıq iqtisadi inkişafın yeni mərhələdə formalaşmasından xəbər verir.

Gündəlik təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Abbas İsmayılov və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Anar İbrahimov qanun layihəsi barədə məlumat veriblər.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb.

Sonda müzakirə olunan məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi oxunub, qanun layihəsi yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasının müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Nazirlər Kabinetində müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilovun sədrliyi ilə müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan Baş nazir bildirib ki, Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması Ulu Öndərin, dövlətimizin modernləşməsi və daha da güclənməsi, milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident cənab İlham Əliyevin adı ilə bağlıdır. Həyata keçirilən davamlı iqtisadi islahatlar sayəsində Azərbaycan ötən müddət ərzində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması istiqamətində əhəmiyyətli addımlar atıb. Davamlı iqtisadi islahatlar nəticəsində bu siyasət qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş, strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, şaxələndirilmiş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir.

Baş nazir vergi və gömrük orqanlarının xətti ilə büdcə daxilolmalarında müsbət dinamika müşahidə edildiyini diqqətə çatdırıb. Bildirib ki, büdcə gəlirləri yerli daxilolmalar hesabına artırılıb. Bu da ilk dəfə olaraq büdcə daxilolmalarının 49 faiz hissəsinin yerli büdcə hesabına başa gəlməsinə səbəb olub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri 2025-ci il büdcəsinin icrasına başlayacaq qurumlara hər bir istiqamət üzrə xərclərin icrası ilə bağlı müvafiq göstərişlər verib. Müvafiq icra orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə elektron sistemlərin ölkənin analoji qurumlarının sistemlərinə inteqrasiyanın sürətləndirilməsini, işgüzar əlaqələrin daha da sıx qurulmasını və onların əldə etdiyi təcrübələrdən yararlanmağı tövsiyə etmiş, aidiyyəti qurumlara bir sıra tapşırıqlar vermişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin 11 aylıq icra vəziyyəti, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda nəzərdə tutulan və Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsində əsaslı vəsait qoyuluşundan (investisiya xərclərindən) maliyyələşdirilməsi təklif edilən layihələrin ciddi texniki əsaslandırmalar aparılaraq hazırlanması tapşırıqları verilmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılovun, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Elnur İbrahimovun, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadənin, Nazirlər Kabinetinin Aparat rəhbəri Sahir Rüstəmovun çıxışları dinlənilmişdir.





# “Bizim borcumuz Azərbaycanın simasını dəyişməkdir”

***“Kimin öz xalqına, öz millətinə necə xidmət etdiyinə ən dəqiq qiyməti tarix verəcək”.*** Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük uzaqgörənliklə gəldiyi bu dəqiq qənaəti dünyanın tanınmış siyasət adamlarının da təsdiq etməsi, həmçinin bu təsdiqin real həyatdakı təcəssümü həm də Ulu Öndərin dahiliyinin təsdiqidir. Bütün həyat və fəaliyyəti boyu ancaq mənsub olduğu xalqı, dövləti üçün özünü mübarizələrə atan, heç nədən çəkinmədən, qorxmadan qarşısına qoyduğu məqsədə nail olmağa çalışan Ümummilli Lider həmişə xalq üçün, insanlar üçün düşünməsini, xalq üçün, insanlar üçün yaşamasını özünün həyat amalına çevirmişdi və bundan fəxarət duyduğunu dəfələrlə bəyan etmişdi. Xalqımız Onu ölkəmizə rəhbərliyi dövrü ancaq belə gördü...

***“Biz bütün bu çətinliklərdən keçdik, bütün bu maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq”***, – deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin birinci dövründə fəaliyyətini illərlə yığışıb qalmış problemlərin həllinə yönəltdi. Bu o dövr idi ki, şanlı və şərəfli tarixi, zəngin yeraltı və yerüstü sərvəti olan Azərbaycan 15 müttəfiq respublika içərisində son yerlərdən birində dayanırdı. Mövcud potensialdan ovaxtkı respublika rəhbərləri öz şəxsi məqsədləri üçün istifadə edirdilər. Ölkəni rüşvətxorluq bürümüşdü. Kadrlarla iş də şəxsi ambisiyalar üzərində qurulmuşdu. Görkəmli dövlət xadimi Heydər Əliyev hakimiyyətə gəldikdən bir qədər sonra Moskvada dərc olunan nüfuzlu “Literaturnaya qəzata”nın müxbirinə verdiyi “Qoy ədalət zəfər çalsın” adlı müsahibəsində o dövrdə gedən prosesləri hərtərəfli açıqlamışdı. Qeyd edək ki, bu müsahibə ovaxtkı sovetlər birliyinin ən ucqar ünvanlarında belə böyük əks-səda yaratmışdı. Çünki “qardaşlıq, bərabərlik” ölkəsinin kiçik bir respublikasında belə hadisələrin baş verməsi inanılmaz idi...

...Bir neçə il sonra Azərbaycan sovet respublikaları içərisində öndə gedirdi.

Dahi rəhbərin Moskvaya daha böyük vəzifəyə aparılması ilə Ulu Öndərin Azərbaycandakı əleyhdarları yenidən öz əməllərini davam etdirməyə başladılar. Bu azmış kimi bir tərəfdən ermənilər dahi rəhbərin Azərbaycanda olmadığından istifadə edir, əsassız torpaq iddialarını həyata keçirmək üçün dəridən-qabıqdan çıxır, havadarlarına arxayın olaraq öz istəklərinə çatmaq istəyirdilər. Bütün bunların sonu isə 1988-ci ildə başlayan hadisələrə gətirib çıxardı. Qarşıda isə 1990-cı ilin Qara Yanvarı, bir qədər sonra Xocalı faciəsi və Qarabağ ətrafındakı rayonların işğalı dururdu. Xalqımızın dahi oğlu böyük cəsarət nümayiş etdirərək Moskvada 20 Yanvar hadisələrinə öz münasibətini bildirdi və o vaxt bu addımı heç kim ata bilməzdi.

...Ulu Öndər çətinliklə olsa da, Azərbaycana qayıdarkən artıq Onun minbir əziyyətlə qurduğu ölkə kapitansız gəmi timsalında idi. Vəziyyəti ağırlaşdıran həm də o idi ki, dahi rəhbəri Bakıya qoymaq istəmirdilər. O da həmişə müqəddəs və əziz saydığı Naxçıvana üz tutmaq qərarına gəldi. Bu qədim yurd yerində Onu nələr gözlədiyini heç kim bilməsə də, naxçıvanlılar böyük sevinc içərisində idilər. Və inanırdılar ki, bu vəziyyətdən onları ancaq Ulu Öndər xilas edə bilər. Naxçıvanlılar inamlarında yanılmırdılar.

***“1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma, eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta Yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilməsə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab-əziyyəti unutdum”***, – deyən görkəmli dövlət xadimi uzunmüddətli dövlətçilik, rəhbərlik təcrübəsindən istifadə edərək öncə naxçıvanlıların qəlbində sabaha ümid, inam yarada bildi. Onlarla görüşlərində dahi rəhbər blokada şəraitində yaşamağa məcbur edilən insanlara təlqin edirdi ki, bu torpaq bizimdir, həmişə bizim olub və naxçıvanlılar heç vaxt düşmənə baş əyməyiblər. Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illərdə həyata keçirdiyi tədbirlər, təbii ki, çoxdur və bunlar barədə ətraflı məlumat verməsi mümkünsüzdür. Həmçinin görülən işlərin nəticələri Naxçıvanı yaşadaraq bu günə gətirib çıxarıb. Ancaq bir məsələni xüsusi qeyd etmək lazımdır. O dövrdə Ulu Öndər təkcə naxçıvanlıların deyil, həm də Naxçıvandan kənarda yaşayan soydaşlarımızın pənah yerinə çevrilmişdi. Bunu görkəmli dövlət xadiminin şərəfinə yaradılmış müqəddəs bir ünvanda – Heydər Əliyev Muzeyində saxlanılan məktub və teleqramlar da təsdiq edir. Ümummilli Lider ölkəmizin digər bölgələrindən Ona göndərilmiş məktublara həssaslıqla yanaşır, insanların qarşılaşdıqları problemlərin həllinə nail olurdu. Naxçıvanda yaşamağı bir vaxtlar yenidən qurduğu, indi isə tarix səhnəsində silinməklə üz-üzə qalmış doğma Azərbaycanı düşmən əlinə vermək kimi düşünən Ulu Öndər sonralar deyəcəkdi: ***“Mən istərdim ki, burada sizinlə daim yaşayım. Ancaq həyat buna imkan vermədi”.***

Bakıda Onu nələr gözlədiyini o dövrü yaşayanlar yaxşı xatırlayırlar. Azərbaycan vətəndaş qarşıdurması ilə üzbəüz idi. Sözün həqiqi mənasında, xalqın düşmənləri olan, siyasət aləmindən başı çıxmayan bir sıra şəxslər öz ambisiyalarını və özləri kimi tərəfdarlarının istəklərini həyata keçirmək üçün Azərbaycanı parçalayaraq dövlət içində “mini dövlət”lərini yaratmaq məqsədilə silahlı münaqişələrə başlamışdılar. İnsanlar bunların nə ilə bitəcəyini bilməsələr də, yaxşı sonluq olmayacağını dərk edirdilər. Ağsaqqal öyüd-nəsihətinə qulaq asan yox idi. Bunu ancaq Ulu Öndər kimi xalqına qəlbən bağlı olan böyük siyasət xadimi bacara bilərdi. SSRİ kimi nəhəng bir imperiyada baş verən müəyyən hadisələrdə qazandığı siyasi təcrübə, insanları ələ almaq və inandırmaq, düz yola dəvət etmək bacardığı bu işdə dahi şəxsiyyətə böyük kömək etməklə xalqımızın düşdüyü bəlalardan qurtarmasına imkan verdi.

***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram”.*** Və həmişə olduğu kimi dediyini də etdi. Dahi insanın yenidən hakimiyyətə qayıtması ilə sanki Azərbaycanın üzünə Günəş doğdu. Təbii ki, dağılmış bir ölkəni yenidən qurmaq kiçik məsələ deyildi və Ümummilli Liderimiz bunun öhdəsindən gələ bildi.

Həyatımızın bütün sahələrində yeniliklər artdıqca, görülən işlər dinamik xarakter aldıqca, insanların qurub-yaratmaq, daha yaxşı sabahlarda yaşamaq əzmi yüksəldikcə, tam sabitlik, əmin-amanlıq təmin olunduqca ölkəmizə xarici ölkələrdən qoyulan sərmayə də artmağa başladı. Çünki Azərbaycan hərtərəfli əməkdaşlıq üçün ən əlverişli və etibarlı məmləkətlərdən birinə çevrilmişdi.

Qeyd edək ki, bu dövrdə həyata keçirilən tədbirlər ölkənin ən ucqar dağ və sərhəd rayonlarını da əhatə edirdi ki, bu da məskunlaşmaya öz müsbət təsirini göstərir, bir qarış torpağımız belə əkilməmiş qalmır, kənd adamları bu qiymətli sərvət hesabına öz gün-güzəranlarını yaxşılaşdırırdılar. Ulu Öndər tez-tez bölgələrdə olur, insanlarla görüşür, onlarla söhbətləşir, qarşılaşdıqları problemlərlə maraqlanır və həmin çətinliklərin yerindəcə aradan qaldırılmasını təmin edirdi.

Ulu Öndər deyirdi: ***“Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur”.***

Yeni tarix yaratmaq, dünya ilə ayaqlaşmağı bacarmaq üçün isə görkəmli dövlət xadimi güclü kadr potensialı yaradılmasını vacib hesab edir və bu məsələni diqqət mərkəzində saxlayır, gənclərin qüvvəsindən düzgün istifadə edilməsinə çalışırdı.

Deyirdi ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən, özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.

Ulu Öndər hər bir gəncə təlqin edirdi ki, harada yaşayırsan yaşa, Vətəndən, ana torpaqdan şirin şey yoxdur. Deyirdi ki, siz düşünməyin Azərbaycan sizə nə etməlidir? Düşünün ki, siz Azərbaycana nə etməlisiniz. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir. Ulu Yaradanın Ona verdiyi ömrü xalqımızın dahi oğlu belə yaşadı. Bu yolda qarşılaşdığı təhdidlər, qadağalar, keşməkeşlər dahi şəxsiyyəti yolundan döndərə bilmədi. Çünki doğma, canı və varlığı qədər sevdiyi Azərbaycan Onun qibləgahı idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir”.***

**Muxtar MƏMMƏDOV**

## Prezident İlham ƏLİYEV:

*“Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu Öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev sevgisini qəlbində yaşadır və yaşadacaqdır.”*

# Heydər babaya salam!

İndiki kimi xatırladığım və hər xatırladıqca həyəcanlandığım 1999-cu ilin oktyabr ayının bir payız günü həyatıma qürurla yazılan və heç zaman silinməyən bir ömürlük ən dəyərli xatirəyə çevrildi. Bəli, sadəcə, bir neçə saniyəlik görüş... Hələ onda cəmi 9 yaşım var idi. Atam bir neçə gün əvvəl “Heydər babanı görmək istəyirsən?” – deyə soruşdu. Biz Onu “Heydər baba” olaraq tanıyırdıq axı. Lap balaca uşaqkən atam bacımla mənə Heydər babaya aid şeirlər, mahnılar öyrədərdi, uzun-uzun ondan danışardı bizə. Atamın bizə aşıladığı bu əziz sevgi uşaqlıqdan canımıza hopmuşdu sanki... Düşünürəm ki, Naxçıvanda bu ənənə təkcə bizim evdə deyildi. Uşaqdan-böyüyə hər kəsin o böyük şəxsiyyətə tükənməz məhəbbəti var idi. Etiraf edim ki, Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” şeirini nə zaman eşitsəm, Heydər baba canlanardı gözümdə. İndi düşünürəm ki, qismən də olsa, yanlış düşünməmişəm. Çünki Heydər Əliyev də vüqarlı bir dağ idi, böyük bir zirvə idi Azərbaycan xalqına. Şəhriyarın bir tribuna kimi istifadə edərək öz arzu və istəklərini bütün dünyaya bəyan etdiyi Heydərbaba dağından daha uca, daha ülvi, daha əzəmətli idi Heydər Əliyev dühası… Necə ki Arazın o sahilində yaşayan soydaşlarımız üçün Heydər baba dağı nicat rəmzi, səadət nişanəsi idi, Azərbaycan üçün də Heydər Əliyev xalq olaraq güvənlə yaslandığımız əzəmətli dağ, böyük dayaq idi.

Biz uşaqlar onu şəkillərdə görüb, şəkillərdə əzizləyib, şəkillərdə sevmişdik. Onun adı keçən şeirləri, mahnıları həvəslə əzbərləyib, qürurla səsləndirmişik. Onu gerçəkdən görməyi xəyal etdikdə ürəyim sürətlə döyünməyə başlayırdı. Atam söz vermişdi axı Heydər babanı görməyə gedəcəkdik. Nəhayət, o gün çatdı. Heç ağlımdan silinməyən o tarix – 13 oktyabr 1999-cu il... Atam demişdi ki, bu gün Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı olacaq, açılış mərasimində Heydər Əliyev iştirak edəcək. Həmin gün səhər saat 9-da ailəlikcə Heydər babanı qarşılamaq üçün yola düşdük. Ancaq indiki İmişli binasının yanına qədər gedə bildik. Çünki şəhərdə böyük izdiham var idi. Hər kəs qəlbində aşıb-daşan sevgi ilə öz xilaskarını şüarlarla, bayraqlarla, güllərlə, çiçəklərlə qarşılamağa gəlmişdi. İnsanlar “Heydər baba”, – deyə qürurla öz dövlətinin qurucusunu, memarını səsləyirdi. Böyük fərəh hissi ilə mən də onlara qoşuldum, bilmirəm sevincdənmi gözlərim yaşla dolurdu, içimdə çağlayan, coşub-daşan qəribə hisslər var idi, bütün qəlbimlə mən də səsləndim: “Heydər baba, Heydər baba!” Bir neçə dəqiqə sonra aramla bizə doğru gələn qara maşının arxa oturacağında əyləşən o ülvi insan xoş təbəssümlə əl sallayaraq önümüzdən keçdi. Sanki qəlbimdə ona qarşı hiss etdiyim bu doğma hissi, bu böyük sevgini hiss etmişdi, üzümə baxaraq mənə gülümsədi, o an özümü saxlaya bilmədim, məni bir hönkürtü tutdu. Bu Onu bir neçə addım yaxınlıqdan görə bilməyin sevinc, qürur, fərəh, fəxarət göz yaşları idi. O xoş baxış, xoş təbəssüm bir ömür yaddaşıma həkk olundu.

Uşaqlıqdan indiyədək qəlbimdə o dahi insana qarşı uca və möhtəşəm bir məhəbbət yaşayır. Heydər Əliyev məhəbbəti… Bənzərsiz həyat yaşamış, xalqımın tarix kitabının qızıl səhifələrini yazmış Ulu Öndər, dahi Heydər Əliyevə olan ülvi məhəbbətimi, hüdudsuz sevgimi ifadə edə bilməyə sözlər aciz qalır. Ürəyimin dərinliklərində coşub-çağlayan duyğuları tərənnüm etmək sözlərə, kəlmələrə, cümlələrə sığmır.

Bu gün hər bir azərbaycanlı yaxşı dərk edir ki, Heydər Əliyev Azərbaycan xalqının mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır. Nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük düha, güclü və müstəqil Azərbaycanın, dünyanın sayğı göstərdiyi, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş ölkəmizin qurucusudur.

Heydər Əliyev tarixin özüdür. Tarix isə yalnız böyük dühaların parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Deyirlər: “Elə yaşa ki, öləndən sonra da ölməyəsən”. Ölməzlik, həmişəyaşarlıq isə ancaq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu Heydər Əliyev də məhz belə şəxsiyyətdir. Bir bahar günündə dünyaya göz açan dahi şəxsiyyət Azərbaycana nemət olaraq bəxş olunan Tanrı payı idi. O öz gəlişi ilə Azərbaycana əbədi bahar gətirib, öz ömür kitabını şərəfləndirən uğurlara imza atıb. Zirvələr fatehi Heydər Əliyev ömrü boyu xalq üçün, Vətən üçün, yurd üçün, torpaq üçün, dövlət üçün çalışıb. Azad, suveren böyük Azərbaycanı yaradıb, üçrəngli istiqlal bayrağımızı başımızın üstündə yenidən dalğalandırıb. Onun misilsiz xidmətləri sayəsində Azərbaycan yenidən müstəqil siyasi varlığa çevrilib.

Heydər Əliyev azərbaycanlı olmağı ilə nə qədər fəxr edirdisə, Azərbaycan xalqı da öz böyük oğluna görə hər zaman özünü xoşbəxt, bəxtəvər sayıb. Xalq hər zaman Heydər Əliyev və onun siyasətinə güvənib, ona arxalanıb. Xalqın təkidi ilə xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi sayəsində xalqımız bir çox bəlalardan xilas olub. İllər ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı möcüzələr daha aydın görünür. Zaman keçdikcə Ulu Öndərimizin böyüklüyünü daha çox hiss edirik. O, Azərbaycanın yalnız bu gününü düşünməyib, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünüb. Mənalı ömrünü öz xalqına həsr etmiş Ulu Öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilib. Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətlər sırasındadır. Təbii ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılıb. Heydər Əliyev ocağının qılınc kimi kəsərli sözü, “dəmir yumruğ”u olan İlham Əliyev, Tomris qeyrətli, Sara xatın siyasətli Mehriban Əliyeva kimi varisləri olduqca biz sabahımızın bu günümüzdən də gözəl olacağına əminik. Heydər Əliyev irsi, siyasəti, yolu var olduqca bəxtəvər Azərbaycan xalqı da var olacaq. Necə ki Azərbaycan var olduqca, Heydər Əliyev də daim yaşayacaq!

Elə dahi şəxsiyyətin dediyi kimi: ***“Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!”*** O, həmişə bizimlədir! Yüz il deyil, yüzlərlə il keçsə də, əsrlər, qərinələr dolansa da, Azərbaycanın adı Heydər Əliyevlə qoşa çəkiləcək! Nağıllarda, dastanlarda, şeirlərdə, nəğmələrdə, çiçəklənən Vətənimizin hər guşəsində onun abidəsi ucalır, ucalacaq! Dahi şəxsiyyətin ən böyük abidəsi isə ona əziz olan xalqın ürəyindəki məhəbbət taxtı, sevgi sarayıdır! Bu sonsuz məhəbbət, bu əbədi sevgi xaqlmızın qəlbində daim var olacaq!

✍ **Gülcamal TAHİROVA**

# Ümummilli Liderin xatirəsi muxtar respublikanın rayonlarında da yad edilib

Dekabrın 12-də müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin xatirəsi muxtar respublikanın rayonlarında da dərin ehtiramla yad edilib.

Dövlət və ictimaiyyət nümayəndələri Ulu Öndərin rayon mərkəzlərində ucalan abidələri önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin xatirəsinə ehtiramlarını bildiriblər.

Ümummilli Liderin anım günü münasibətilə muxtar respublikanın rayonlarında ehsan süfrələri də açılıb.






# SƏN ELƏ BİR ZİRVƏSƏN...



***Naxçıvanda əzəmətli, vüqarlı, müqəddəs bir məbədgah var. Ulu yurdumuz Naxçıvana qədəm qoyan hər kəs əvvəlcə bu yeri ziyarət etməyi özünə mənəvi borc bilir. Çünki bu yerdə xalq olaraq mənəviyyatımızı qoruya bilmək, dəyərlərimizə sahib çıxmaq, milli kimliyimizi dünyaya sübut etmək gücünü xalqımıza bəxş edən Ulu Öndəri dərin sevgi və ehtiramla yad edirik. Sanki bu yerdə dərk edir, hiss edirik ki, bəzi insanlar öz nurunu mənəvi aləmin ən yüksək zirvəsinə çatdırmağa qadirdir. Üz tutduğumuz ümman qədər sonsuz sevgi bəslənilən bu ziyarətgaha ümumxalq məhəbbəti var. Çünki bu yer xalqını sonsuz məhəbbətlə sevən, qoruyan, arxa-dayaq olan Ulu Öndərin adını şərəflə daşıyan xatirə muzeyidir.***

Bu muzey Azərbaycanımızın xilaskarının anadan olmasının 75-ci ildönümü günündən fəaliyyətə başlayıb. Həyatı hamıya örnək olan Ulu Öndərin ictimai-siyasi fəaliyyətini öyrənmək üçün burada təşkil edilən guşələrin hər biri bir tarixi salnamədir. Ətrafı qırmızı çiçəklərlə bürünmüş bu ünvan dekabr ayında sanki kədərli bir görkəmə bürünür. Elə bil muzey də adını daşıdığı əvəzolunmaz dahinin yoxluğuna, bizdən cismən ayrıldığına görə qəmqüssəyə batıb... Xüsusilə bu vaxtlar qələbəlik olan muzeyə insan axınının ard-arası kəsilmir – bura xalqın ziyarət yerinə çevrilir. Azərbaycan xalqı bir an olsun öz xilaskarını unutmur, daim onu ehtiramla yad edir. Çünki ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən şəxsiyyətlər heç zaman unudula bilməz.

Muzeyi addım-addım gəzərkən Ulu Öndərin şəxsi əşyalarını izlədikcə insanın qəlbində coşub-çağlayan qürur hissini sözlərlə ifadə etmək necə də çətindir... Azərbaycanı işıqlı gələcəyə qovuşduran, nurlu gələcəyə aparan bir çırağın qarşısındayam. Atamızın xalqımızın firavan günləri üçün qəbul etdiyi mühüm qərarları bu çırağın işığında imzaladığını düşündükcə qeyri-ixtiyari duyğu yüklü hisslər tələtümə gəlir. Qəlbim bu çırağın hərarəti ilə isinir. Sanki Ümummilli Liderin 1991-1993-cü illərdə Naxçıvanda istifadə etdiyi şəxsi əşyaları içərisindəki bu çıraq muzeyin digər dəyərli nümunələrindən tamamilə fərqlənir. Bəlkə də, ona görə ki, bu çıraq Ulu Öndərin atdığı qətiyyətli addımlara şahidlik edib.

Tarixin ən sərt dövrlərindən keçərək xalqımızın milli şüuruna süzülən, Ulu Öndərin mənalı ömür yolu, həyatı barədə insanlara illərdir, qürurla məlumat verən digər mənəviyyat guşəsində bir əşya da var... Ulu Öndərin məğrur simasına baxaraq qürurlanan bu əşya Ulu Öndərin Azərbaycanın tarixinə hopduğu və əbədiyaşarlıq qazandığı anın dəqiqələrini, hətta saniyələrini üzərində daşıyan ən sevdiyi saatıdır... 20 ildən çoxdur ki, həmin yerdə dayanaraq saat 7-yə 8 dəqiqə qalan zamanı göstərir. O zaman ki Atamızın aramızdan cismən ayrılıb, xalqın çiyinlərində əbədi həyata yola salındığı o nakam zaman...

Dahi şəxsiyyətin həyatı, siyasi fəaliyyətini ən səmimi sözlərlə, fikirlərlə ifadə edən "Xatirə kitabı"nı həyəcanla vərəqləyirəm. Kimlər-kimlər öz səmimi, sevgi dolu ürək sözlərini yazıblar bu kitaba... Diqqətimi Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyevin yazdığı bu fikirlər çəkir: ***"...Ulu Öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər. Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır".***



Xalqının rifahını, həyatını daim göz önündə tutan, bir an belə olsun içində Azərbaycan xalqının olmadığı siyasəti düşünməyən dahi rəhbərin xidmətləri necə də zəngin və mənalıdır. Liderimiz Heydər Əliyevin hər zaman xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, milli mədəniyyətimizin inkişafı, xalqın adət-ənənələrinin zənginləşdirilməsi, bir sözlə, xalqa, canımız, qanımız doğma Azərbaycanımıza misilsiz xidmətlərini muzeydə nümayiş olunan bir-birindən dəyərli eksponatlar da sanki dil açıb danışmaq istəyir.



Muzeylə vidalaşarkən muzeyin önündə böyük şəxsiyyətin məğrurluğunu, ucalığını, ülviliyini ifadə edən, əzəmətlə yüksələn abidəsini qürurla izləyirəm. Qarşısında dayanıb, sonsuz minnətdarlıq hissi ilə önündə baş əyirəm, təşəkkür edirəm, bizə müstəqil Azərbaycanı və bu gün Onun yolu ilə addım-addım gedərək xalqımızı xoşbəxt günlərə, nurlu sabahlara aparan cənab İlham Əliyev kimi böyük şəxsiyyət bəxş etdiyi üçün...





✍ **Gülcamal TAHİROVA**





# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Elbrus Əhmədovun anası Nisəxanım Əhmədovanın, Sədərək rayonunun Dəmirçi kəndindən olan şəhidimiz Rüfət Gözəlovun anası Ruhəngiz Gözəlovanın və Şərur rayonunun Siyaqut kəndindən olan şəhidimiz Şahmar Səfərovun anası Pakizər Səfərovanın övladları haqqında xatirələri yer alıb.*

## Elbrus Səmrəddin oğlu Əhmədov

*(09.05.1988-30.11.2021)*

### Fəxr edirəm ki, mən Elbrus kimi qəhrəmanın anasıyam







Elbrusun arzusu hərbçi olmaq, Vətənin keşiyində dayanmaq idi. Ona görə öz istəyi ilə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdu. Kursant vaxtı evimizə xoş sədası gəlirdi. İdmana da güclü maraq göstərirdi. Cüssəli idi. Qardaşları ilə güləşər, onlarla vaxt keçirməyi xoşlayardı. Atası ilə çox yaxın dost idilər. Həmişə ondan məsləhət alardı. Atası da Elbrusun fikirlərini həmişə dəstəkləyirdi. Müharibədə Elbrus helikopterlə qəhrəman kimi iştirak etdi. Döyüş yoldaşları ilə çox mehriban idi.

33 yaşı tamam olacaqdı. Evə gəlmişdi. Susqun idi. Soruşdum ki, oğlum, niyə beləsən? Dedi ki, ay ana, qoy ürəyimdəki ürəyimdə qalsın. Məni narahat etməmək üçün yenə susdu. Təkid etdim ki, oğul, dərdi deyəndə adam yüngülləşir. Dedi ki, ana, səni narahat etmək istəmirəm. Ana, helikopterimin qanını Xəzər yusa bitirə bilməz. O cür ki, qəhrəman şəhidlər, yaralı igidlər daşıdım.



Gördükləri, yaşadıqları, təbii ki, ona pis təsir edirdi. Müharibənin ağrı-acısının içində olaraq orada gördüklərini unuda bilmirdi. Deyirdi ki, kaş mən də şəhid olaydım. Deyirdim ki, ay oğul, sənə qurban olum, Allah səni üç körpə balana bağışlayıb. Deyirdi ki, ana, şəhidlik bir zirvədir. Bu zirvə hər kəsə qismət olmur.

Özünə ancaq bu zirvəni arzulayırdı. Demək ki, balamın qismətində şəhid olmaq varmış. Şəhid olanda iş yoldaşları təsəlli verirdilər ki, ana, narahat olma. Elbrusun öz arzusu idi. Arzusuna çatdı. Hamımızın da ürəyindədir.

Bu gün onun 3 yadigar balası yaşayır. Bir qızı və iki oğlu qəhrəman atalarının adına layiq böyüyürlər. Bu gün fəxrlə deyirəm ki, mən Elbrus kimi qəhrəmanın anasıyam. Qəhrəman balalarımızın canı, qanı bahasına işğalda olan torpaqlarımızı azad etdik. İgid oğullarımızın ürəklərində olan qisas hissi müharibədə onların döyüş əzminə çevrildi. Adları ilə Vətənimizin adına “Zəfər” sözünü yazdılar. Bu gün hər birimiz qürur, iftixar hissi keçiririk. Əminik ki, gələcək nəsillər də bu cür yüksək vətənpərvərlik ruhunda böyüyəcəklər. Allah xalqımıza bir daha müharibə yaşatmasın. Bayrağımız daim uca zirvələrdə dalğalansın. Elbrus kimi oğulların da ruhu şad olsun.

## Rüfət Əzim oğlu Gözəlov

*(17.03.1996-27.10.2020)*

### Fəxrliyəm, qürurluyam ki, balam igiddir, qəhrəmandır!





Rüfətin haqqında çox xatirələr danışa bilərəm. Saatlarla. Çox mehriban, gülərüz, qayğıkeş övlad idi. Balaca vaxtından fərqlənirdi. Hərbiyə xüsusi həvəsi var idi. Orta məktəbin VII sinfində oxuyarkən sənədlərini hərbi liseyə verdi. Amma gözlərində zəiflik olduğu üçün orada oxumağa icazə vermədilər. Orta məktəbi qurtardıqdan sonra hərbi xidmətə getdi. Yaxşı xidmət edirdi. İstəyirdi ki, çox arzuladığı hərbidə qalsın. Dedi ki, üç aylıq kurs keçib xidmətə başlayacaq. Onda da mən razı olmadım. Sonra bir il səkkiz ay başqa sahədə işlədi. Zəngləşib tez-tez danışırdıq. Elə hey deyirdi ki, ana, sən qoymadın ki, mən komandir olum. Ancaq sonda öz arzusuna çatdı.



Bir gün gördüm ki, qapı döyülür. Açdım, gördüm, Rüfət. Çıxıb gəlib ki: “Ana, mən gəlmişəm, komandir olacağam”. Baxdım hələ də fikri dəyişməyib.

Sənədlərini hazırladı. Yenidən hərbiyə verdi. İşə qəbul olundu. İnanın ki, hərbiyə qəbul xəbərini eşidən kimi telefonu yerə qoyub rəqs etməyə başladı. Elə bil dünyanı ona verdilər. Mən də onun sevincinə qoşuldum.

Kursu da yaxşı başa vurdu. İşlədiyi müddətdə dəfələrlə fəxri fərmanlar aldı. Bir il dörd ay xidmət etdi.

Bazar günləri evdə olurdu. 2020-ci ilin may ayı idi. Tezdən yuxudan durub yanıma gəldi. Dedi: “Ana, yuxu görmüşəm. Görmüşəm ki, şəhid olacağam. Müjdəmi aldım”. Dedim, ay Rüfət, bu nə fikirdir ağlına gəlib? Niyə elə deyirsən? Dedi: “Ana, şəhidlikdən üstün nəsə varmı?”

Dedim, oğul, üstün də olsa, elə demə. Heç məni fikirləşmirsən? Gülə-gülə çıxıb getdi. Sanki mənim mükafatımı vermiş kimi. Fəxrliyəm, qürurluyam ki, balam igiddir, qəhrəmandır! Allah bütün şəhidlərimizin ruhunu şad etsin.

## Şahmar Nazim oğlu Səfərov

*(01.09.1997-27.09.2020)*

### Bütün Azərbaycanın qəhrəmanına çevrilən övlad





İllər öncə fikirləşməzdim ki, nə vaxtsa oğlum Şahmar haqqında xatirələr danışacağam.

Onun haqqında danışmaq mənim üçün çətindir. Ancaq həm də qürurvericidir. Ailədə üç övlad olublar. Şahmar ailəmizin ən kiçiyi, sonbeşiyi idi. O hər zaman birinciliyi sevirdi. Sözü üzə deyən, qorxmadan, çəkinmədən danışan bir uşaq idi. Mən həm Şahmara dərs demişəm, həm də sinif rəhbəri olmuşam. Sinifdə də bütün uşaqlardan fərqlənirdi.

Şahmar, həmçinin dostcanlı idi. Hələ də dostları onun sədaqətindən danışırlar. İnanın ki, dost yolunda canından da keçərdi. Son qəpiyini də dostu ilə bölüşməyə hazır idi.

Bu gün Şahmar təkcə ailəmizin deyil, bütün Azərbaycanımızın qəhrəmanına çevrilən bir övladdır. Buna bir ana kimi sevinirəm. Şahmar VIII sinifdə oxuyanda atasını itirdi. Ona həm ata, həm də ana olmuşam. “Ana, narahat olma... Hər şey yaxşı olacaq. Təki sən darıxma”, – deyərdi həmişə... Şahmar məni dünyalar qədər sevirdi. Mənə təsəlli verərdi: “Səni gözəl yaşadacağam”, – deyərdi. Böyük arzularla yaşayırdı. Amma arzuları ürəyində qaldı. Heç bir arzusu həyata keçmədi. Taleyin qisməti belə imiş.

Şahmarla sonuncu görüşümüz 17 fevral 2020-ci ildə olub. Ana-bala oturub söhbət edirdik. Birdən ayağa qalxdı. Dedi ki, ana, işğal altında olan torpaqları gec-tez almalıyıq. Bu ancaq müharibə yolu ilə ola bilər. Mən də şəhid olacağam. Dedim, oğul, o nə sözdür danışırsan? Dedi, ana, mən olacaqları dedim. Birinci də şəhid olan mən olacağam. Sən başını dik tut, alnıaçıq, qürurlu ol. Doğrudan da, Vətən müharibəsi başlayanda həmişə birinciliyi ilə seçilən Şahmar 27 sentyabrda Daşkəsən-Kəlbəcər istiqamətində olan döyüşlərdə ilk



şəhidlərdən biri oldu. Mənim Şahmarım belə övlad olub. Qəhrəman, qorxmaz, yenilməz! Bu gün Şahmar mənim üçün, xalqım üçün canından keçdi. Anasını intizarda qoydu. Amma şəhid oldu, unudulmaz oldu. Vətən sağ olsun!




## Yeni nəşrlər

# Şanlı tarixin fundamental tədqiqi

***Azərbaycanımızın ən qədim mədəniyyət mərkəzlərindən biri tarixlər şahidi ulu Naxçıvan torpağıdır. Bu diyar tarixboyu müxtəlif imperiyaların göz dikdiyi strateji əhəmiyyətli məkanlardan biri olmuşdur. Əldən-ələ keçən bu cənnətməkan diyar XX əsrin əvvəllərində muxtariyyət qazanmaqla taleyini birdəfəlik Azərbaycanla bağlamışdır.***

Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı imzaladığı Sərəncamda bu torpağın qəhrəmanlıq tarixi və ölkəmizin ayrılmaz hissəsi olduğu əksini tapıb: *“Naxçıvanın qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir”.* Sərəncamda da qeyd edildiyi kimi, təəssüf ki, Naxçıvanın qədim keçmişi, muxtar respublikanın yaranması və inkişaf tarixi sovet dövründə Azərbaycan tarixşünaslığında doğru-düzgün şəkildə işıqlandırılmamışdır. Bu mənada, akademik İsmayıl Hacıyevin bu yaxınlarda “Elm və təhsil” nəşriyyatında çapdan çıxan “Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi” adlı monoqrafiyası Sərəncamdan irəli gələn vəzifələrin araşdırılması istiqamətində qədim diyarın 100 illik yubiley tədbirləri ərəfəsində ərsəyə gələn fundamental elmi-tədqiqat əsəridir.

Alimin çoxsaylı kitab, monoqrafiya və məqalələri Naxçıvan tarixinin Azərbaycançılıq ideologiyası işığında tədqiqi baxımından sanballı və aktual elmi silsilə təşkil edir. Bu istiqamətdə İsmayıl Hacıyevin yeni çapdan çıxmış adıçəkilən monoqrafiyası çoxillik tədqiqatların ümumiləşdirici yekunu sayıla bilər.

Giriş, 7 fəsil və nəticədən ibarət olan monoqrafiyaya geniş ədəbiyyat siyahısı, şəxs və coğrafi adlar göstəricisi və əlavələrin də daxil edilməsi əsəri daha da zənginləşdirib. Girişdə Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi probleminin tədqiqi səviyyəsi haqqında müvafiq mənbələr əsasında geniş şəkildə məlumat verilir. “Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə” adlanan birinci fəsil 5 yarımfəsildən ibarətdir. Çar Rusiyası 1917-ci ildə süqut etdikdən sonra Cənubi Qafqazda da vəziyyət mürəkkəbləşmiş, bölgə nəzarətdən çıxmışdı. Ona görə müəllif bu fəsildə Azərbaycanda dövlətin bərpası uğrunda mübarizə dövründə Naxçıvan (1917-1918) yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (1918-1920) məsələlərindən, həmin dövrdə Türkiyənin Naxçıvan bölgəsinə hərbi-siyasi yardımından, İngiltərə və ABŞ-nin Naxçıvan bölgəsinə dair ikili siyasətindən və bu kontekstdə ermənilərin bölgəyə ərazi iddiaları və silahlı müdaxiləsi məsələlərindən ayrı-ayrı başlıqlar altında əhatəli bəhs etmişdir. Müəllif göstərir ki, Naxçıvanın işğalçılardan müdafiə olunması üçün Osmanlı ordu birliklərini regiona yerləşdirən Kazım Qarabəkir paşa 1918-ci il noyabr ayında ordu Naxçıvanı tərk etməyə məcbur olduqda bölgənin düşmənlərdən qorunması üçün yeni siyasi qurum – Araz-Türk Cümhuriyyətinin yaradılması ideyasını irəli sürənlərdən biri olmuşdur. “Araz-Türk Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu” adlanan II fəsil bu siyasi təşkilatın fəaliyyətinin öyrənilməsinə həsr edilmişdir. Alim ilk dəfə bu monoqrafiyada Araz-Türk Cümhuriyyətinin sərhədləri, fəaliyyəti, hökumətin tərkibi ilə bağlı bəzi mübahisəli məsələləri aydınlaşdırmağa nail olmuşdur. Monoqrafiyanın III fəsli “Naxçıvanda sovet hakimiyyətinin qurulması, muxtariyyət statusu və Naxçıvan MSSR-in təşkili” adlanır. Məlumdur ki, bu dövrdə daşnak Ermənistanı Naxçıvanı işğal etmək üçün var qüvvəsi ilə çalışırdı. Naxçıvanı qoruyan Türk hərbi birliyi buna imkan vermirdi. Yerli əhali Naxçıvanın sovet Azərbaycanının tərkibində olmasını istəyirdi. Naxçıvanda sovet hökumətinin yaradılması 1920-ci il iyulun 28-də elan edilmişdi. Amma daşnak Ermənistanı Naxçıvana ərazi iddialarından əl çəkmək istəmirdi. Hərc-mərcliyə və Ermənistanın ərazi iddialarına son qoymaq üçün Behbud ağa Şahtaxtinskinin iştirakı ilə 1921-ci ilin yanvar ayında Naxçıvanda referendum keçirildi. Referendumun nəticələri Moskva hökumətini məcbur etdi ki, yerli əhalinin iradəsini nəzərə alsın. Monoqrafiyada göstərilir ki, Moskva müqaviləsində Naxçıvanın ərazisi 6 min 238 kvadratkilometr göstərildiyi halda, 6 ay sonra imzalanmış Qars müqaviləsində bu ərazi 285 kvadratkilometr azaldılmışdır. Türkiyənin təzyiqi ilə meydana çıxan bu müqavilələr müəllifin təsbit etdiyi kimi, Moskvanın yüksək dairələrində qısqanclıqla qarşılanmış, onun icrasına imkan verilməmişdir. Diyar gah Naxçıvan ölkəsi, gah da Naxçıvan Sosialist Sovet Respublikası adlandırılmış, Ermənistanın tərkibinə verilməsi üçün zəmin hazırlanmışdır. Türkiyənin tələbi ilə, nəhayət, 1924-cü il 9 fevral tarixdə Azərbaycanın tərkibində bu il 100 illiyi tamam olan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edilmişdir. Bu monoqrafiyada ilk dəfə muxtar respublikanın statusu məsələsi dövlət hüququ prinsipləri əsasında yüksək elmi səviyyədə tədqiq və təhlil olunmuşdur.

“Naxçıvan MSSR XX əsrin 20-30-cu illərində” adlı IV fəsildə muxtar respublika kimi bu bölgənin 15 illik siyasi-iqtisadi və mədəni məsələləri 4 yarımfəsildə arxiv materialları əsasında, Azərbaycançılıq ideologiyası işığında araşdırılmışdır. Bu fəsildə Zəngəzur probleminin ortaya çıxması, sovet rəhbər dairələri üzərində erməni təsirinin güclənməsi nəticəsində Naxçıvan muxtariyyətinə qəsd, Azərbaycanla Naxçıvanı ayırmaq üçün qanunsuz olaraq ərazimizin Ermənistana verilməsi, bunun nəticəsində muxtar respublikanın 6238 kvadratkilometr ərazisinin 1933-cü ildə 5329,6 kvadratkilometrə endirilməsi məsələləri və bunun acı nəticələri faktlar əsasında şərh edilmişdir. Monoqrafiyanın “Naxçıvan Muxtar Respublikası 1941-1945-ci illər müharibəsi dövründə” adlı V fəslində naxçıvanlıların müharibə və arxa cəbhələrdəki fəaliyyətlərindən ətraflı şəkildə arxiv materialları əsasında yeni maraqlı məlumatlar verilmişdir. “Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı” adlanan VI fəsildə qədim diyarın müharibədən sonrakı dövrdən müstəqillik dövrünə qədərki ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı yeni arxiv materialları əsasında şərh və təhlil edilmişdir. Bu qiymətli əsərin sonuncu VII fəsli diyarın müstəqillik dövründəki ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı məsələlərinin araşdırılmasına həsr olunmuşdur. Bu fəslin ilk bölməsi “Naxçıvan tarixində Heydər Əliyev dövrü (1990-1993)” adlanır. Bu o vaxt idi ki, Naxçıvan böhran və səfalət içində idi, 20 Yanvar qırğını baş vermiş, Kərki kəndi işğal edilmişdi, Bakı ilə nəqliyyat əlaqəsi kəsilmək üzrə idi. Bu təhlükələri mərkəzin diqqətinə çatdırmaq üçün, hətta Naxçıvan MSSR Ali Soveti 19 yanvar 1990-cı il tarixdə növbədənkənar sessiya çağırıb özünü müstəqil respublika elan etdi. Bu qərarla əlaqədar görkəmli dövlət başçısı Heydər Əliyev demişdir ki, bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi. Müəllifin də qeyd etdiyi kimi: “Heydər Əliyev Naxçıvana qayıdışı ilə bu bölgəni və bütün Azərbaycanı gözləyən real təhlükədən xilas etdi. Onun Naxçıvana gəlişi burada ictimai-siyasi həyatı daha da canlandırdı, xalqın mübarizə əzmini möhkəmləndirdi. Heydər Əliyev xalq deputatı, sonra isə Ali Məclisin Sədri kimi fəaliyyət göstərdiyi dövrdə bütün respublika üçün böyük əhəmiyyət kəsb edən qərarlar qəbul edildi”.

“Naxçıvan Muxtar Respublikasının əsas inkişaf istiqamətləri və nailiyyətləri” bölməsində isə göstərilir ki, müstəqillik dövründə muxtar respublikada stabil hakimiyyətin yaradılması blokada şəraitinə baxmayaraq, sosial-iqtisadi, elmi-texniki və mədəni inkişaf sahələrində böyük uğurlara yol açdı. Muxtar respublikanın sosial-iqtisadi göstəriciləri kəmiyyət və keyfiyyət baxımından yüksəlməyə başladı. Beləliklə, Naxçıvanın Azərbaycanın həyatındakı rolu genişləndi və daha da möhkəmləndi. Ümumiyyətlə, akademik İsmayıl Hacıyev “Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi” monoqrafiyası ilə bir daha sübut etdi ki, Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: ***“Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb siyasi bir şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir”.***

**Əbülfəz QULİYEV**
*AMEA-nın müxbir üzvü*




# Tarixi özündə yaşadan monoqrafiya: “Naxçıvan şivələri”

Hər bölgənin özünə aid şivələri olduğu kimi, Naxçıvan bölgəsinin də zəngin şivə materialı vardır. Naxçıvan əhalisinin dilindən süzülüb gələn bu xəzinə filologiya elmləri doktoru, dosent Nuray Əliyeva tərəfindən araşdırılaraq bu günlərdə işıq üzü görən “Naxçıvan şivələri” adlı monoqrafiyada oxuculara təqdim olunmuşdur. İki cilddə çap olunması nəzərdə tutulan monoqrafiyanın birinci cildi Nuray Əliyevanın uzun illər çöl ekspedisiyalarına verdiyi əməyin bəhrəsidir. Bu baxımdan oxuculara təqdim olunan “Naxçıvan şivələri” adlı monoqrafiya çox dəyərli əsərdir.

Elmi redaktoru AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev, rəyçiləri filologiya elmləri doktoru, professor İbrahim Bayramov (ön sözün müəllifi), filologiya elmləri doktoru, professor Məhərrəm Məmmədlinin olduğu monoqrafiya giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Müəllif birinci fəsildə Naxçıvan şivələrinin fonetikasını 4 paraqrafa, hər paraqrafı da bəndlərə bölərək tədqiqata cəlb etmişdir. Bu fəsildə Nuray Əliyeva çox maraqlı dialekt faktlarını seçmiş və təhlilini vermişdir. Bizim də diqqətimizi – sö:pət (söhbət), go:l (könül), Ə:z (Əziz), lə:z (ləziz), u:n (onun) və sair kimi şivələrdə işlənən sözlər çəkdi. Bu şivə sözlərini ilk eşidəndə, təbii ki, ilkin mənasını anlamaqda bir qədər çətinlik yaranır. Monoqrafiyada yer alan bütün şivə sözlərinin qarşısında ədəbi dil variantı verildiyinə görə oxuyanda çətinlik çəkmirsən. Bu da monoqrafiyanın müsbət cəhətlərindən biridir.

“Naxçıvan şivələri” adlı monoqrafiyanın ikinci fəslində əsas və köməkçi nitq hissələri araşdırılır. Bir neçə paraqraf və bənddən ibarət olan bu fəsildə yeni və maraqlı faktlara və nümunələrə rast gəlirik. Bu monoqrafiyanı oxuyanda elə dil faktları ilə qarşılaşırıq ki, onları naxçıvanlı olub, Naxçıvanda yaşamağımıza baxmayaraq, ilk dəfə idi eşidirik. Ona görə bu monoqrafiyanı dönə-dönə oxudum. İlk dəfə eşitdiyim şivələrimizdə işlənən həmin sözlərdən bir neçəsini oxucuların da diqqətinə çatdırmaq istəyirəm. Məsələn, keşir (kök), lopa (içərisinə duz doldurulub yumrulanmış və benzinə batırılmış, kürəyə banka salmaq üçün istifadə olunan əski), ayanat (köməklik, yardım), sağanax (ələyin kənarının dairəvi taxta hissəsi), çəxmədüz (çəkməçi), gözdəx (aşırım) və sair. Lopa sözünü oxuyanda ilk ağla gələn mənası qar olur. Çünki qar iri-iri yağanda deyirik, lopa-lopa qar yağır. Bu monoqrafiyaya görə, lopa sözünün şivələrdə fərqli mənada işlənməsini də müşahidə etdik. Gəldiyimiz qənaət belə oldu ki, bölgələrimizi qarış-qarış gəzmədən də bu əsər vasitəsilə o bölgələrin şivəsi ilə yaxından tanış olmaq mümkündür. Burada, eyni zamanda Naxçıvan şivələrinin özünəməxsus xüsusiyyətlərinin olduğunu da görürük. Tədqiqatçı bu xüsusiyyətləri belə izah edir. “Leksik şəkilçilərdə, kəmiyyət, mənsubiyyət, hal, xəbərlik kateqoriyalarının şəkilçilərində, mənsubiyyət şəkilçisi qəbul etmiş isimlərin, əvəzliklərin hallanmasında, sıra saylarında, sifətin dərəcələrində, feillərin təsriflənməsində, köməkçi nitq hissələrində özünü göstərir.

Üçüncü fəsildə Naxçıvan şivələrinin sintaksisi təhlil edilir. Bu fəsildə sintaksisin tədqiqat obyektlərindən olan söz birləşmələri diqqəti daha çox cəlb edir. Məsələn, ət torpaq (qeyri-məhsuldar torpaq), naxır əyağı (axşam çağı), it sarımsağı (yabanı bitki), tərs gün (üçüncü gün) və sair Naxçıvanın hər guşəsindən toplanan bu kimi qiymətli dialekt faktları xalqın tarixi inkişaf mərhələlərini özündə yaşadır.

Bu əsəri daha əhəmiyyətli edən cəhətlərdən biri də Naxçıvan şivələrinin “Kitabi-Dədə Qorqud” dastanından və “Dastani-Əhməd Hərami” poemasından, Ş.İ.Xətai, İ.Nəsimi, M.Füzuli, Kişvəri, M.P.Vaqif və başqa şairlərin dilindən örnəklər göstərilməklə dil tariximizlə müqayisəli şəkildə izah edilməsidir. Müəllif şivələrdə sözlərin birləşməsi nəticəsində səslərin düşümünü (necoldu – necə oldu, nolsun – nə olsun, nəşim var – nə işim var və sair) izah edərkən klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərindən nümunələr gətirərək bu hadisənin tarixən də dilimizdə geniş şəkildə işlənməsini göstərməyə çalışır.

Monoqrafiyanın digər müsbət cəhətlərindən biri də tədqiqat zamanı müəllifin həm Azərbaycanın digər bölgələrinin, həm də türk xalqlarının şivələrindən də gətirdiyi nümunələrlə müqayisələr aparmasıdır.

Maraqlı, orijinal və qiymətli nümunələrlə zəngin olan bu monoqrafiya Azərbaycanın, o cümlədən də türk dillərinin, onların dialekt və şivələrinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

**Çinarə RZAYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Bələdiyyələrlə bağlı mövcud vəziyyət, yeni qanunlardan gözləntilər, yeni hədəflər...



*Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan, 1999-cu ilin dekabrında ilk seçkilərin keçirilməsi ilə əsası qoyulan bələdiyyə institutunun inkişafına ötən dövrdə ali səviyyədə lazımi diqqət yetirilib, onların fəaliyyəti üçün zəruri hüquqi baza formalaşdırılıb, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib, bu sahədə zəngin təcrübə qazanılıb. Yarandığı zamandan bu günədək həm vətəndaşlar, həm də ekspertlər tərəfindən bu təsisatın praktiki əhəmiyyəti ilə bağlı müxtəlifyönlü rəylər, fikirlər, mülahizələr səsləndirilib.*

Bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılmasının, təkmilləşdirmənin aparılmasının zəruriliyi nəzərə alınaraq yeni qanunvericilik bazası formalaşdırılıb və cari il noyabrın 25-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Azərbaycan Respublikasının Qanunu təsdiq edib. Həmçinin "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidenti Fərman imzalayıb. Həmin normativ-hüququ aktlara əsasən Naxçıvanda da birləşdirmə yolu ilə yeni bələdiyyələr yaradılıb. Ümumiyyətlə, yeni qanunvericilik bələdiyyələrin fəaliyyətini hansı əsaslarla tənzimləyəcək, bu sahədə dəyişikliklər nələrdən ibarət olacaq? Elə bu və digər suallarımızı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Xəyal Eyvazova ünvanladıq.

*– Xoş gördük, Xəyal müəllim. Bildiyimiz kimi, ilk milli Konstitusiyamız əsasında yaradılan, 25 ildən artıq bir yol qət edən yerli özünüidarəetmə orqanı – bələdiyyələrlə bağlı vəziyyət zaman-zaman müzakirə mövzusu olub. Günümüzdə də bu məsələ öz aktuallığını qoruyur. Bu baxımdan istərdim, ilk olaraq bu yerli təsisatın işinin təşkili ilə bağlı qanunvericilikdə nəzərdə tutulan müddəalara qısaca aydınlıq gətirək.*

– Yerli özünüidarə sisteminin təkmilləşdirilməsi və inkişafı ölkədə vətəndaş cəmiyyətinin formalaşması, demokratik, hüquqi dövlətin möhkəmlənməsi baxımından çox vacibdir. Bu göstəricilər bütün demokratik ölkələr kimi müstəqil Azərbaycan Respublikası üçün də xarakterikdir. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin demokratikləşməsi və səmərəli idarə edilməsində yerli özünüidarəetmənin rolunu yüksək qiymətləndirirdi. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsinin, bütövlükdə, yerli özünüidarəetməyə həsr edilməsi bunun bariz ifadəsidir.

Konstitusiyada yerli özünüidarənin təşkili forması, bələdiyyələrin işinin təşkili və bələdiyyələrin səlahiyyətləri göstərilmişdir. Belə ki, Azərbaycan Respublikasında yerli özünüidarəni bələdiyyələr həyata keçirir və bələdiyyələr seçki əsasında yaradılır. Bələdiyyələr öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsilə həyata keçirir. İclasları bələdiyyənin sədri çağırır. Konstitusiya ilə nəzərdə tutulmuş qaydada bələdiyyə iclaslarında bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi, bələdiyyənin reqlamentinin təsdiq edilməsi, bələdiyyə sədri və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi, yerli vergilərin və ödənişlərin müəyyən edilməsi, yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam, yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf və yerli ekoloji proqramların qəbulu və icrası məsələləri müzakirə olunur. Eyni zamanda Konstitusiyada nəzərdə tutulmuş qaydada bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

*– Yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin yaradılması prinsipləri, rolu, yerli özünüidarəetmənin hüquqi, iqtisadi və maliyyə əsasları, onun həyata keçirilməsi üçün dövlət təminatları 2 iyul 1999-cu il tarixdə qəbul edilmiş "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilib...*

– Bəli, həmin qanunda yerli özünüidarəetmənin statusuna, fəaliyyət dairəsinə aydınlıq gətirilib: Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və Konstitusiya ilə səlahiyyətlərinə aid edilmiş, yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Yerli əhəmiyyətli məsələlər dedikdə isə bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı Konstitusiya və qanunlarla müəyyənləşdirilən məsələlərdir. Onu da qeyd edim ki, bu anlayış "Yerli özünüidarə haqqında Avropa Xartiyası"nda yerli özünüidarəyə verilmiş anlayışla mahiyyət etibarı ilə eynilik təşkil edir. Ümumiyyətlə, Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

*– Məlum olduğu kimi, noyabrın 25-də dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiqləndi. Eyni zamanda "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezitenti Fərman imzaladı. Yeni qanunlar yerli özünüidarəetmə sahəsində hansı dəyişikliklərə yol açacaq? Naxçıvanda bununla bağlı görüləcək işlər barədə məlumat verməyinizi istərdik.*

– Son illər ölkəmizdə həyata keçirilmiş genişmiqyaslı islahatlar və sosial-iqtisadi inkişafda əldə edilən nailiyyətlər bələdiyyələrin fəaliyyətlərinin müasir səviyyədə qurulmasını zəruri edib. Yerli özünüidarəetmə fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə maliyyə-iqtisadi, kadr potensialı, ərazinin coğrafi və digər yerli xüsusiyyətləri nəzərə alınmaqla mövcud və yeni yaradılacaq bələdiyyələr üçün qanunvericilikdə aşağı hədd kimi əhali sayını 3000 nəfər, ev təsərrüfatlarının sayını isə 1000 vahid müəyyən edən müddəalar "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında əksini tapıb. Hesab edirik ki, bu sahədə aparılan islahatlar yerli özünüidarəetmədə müəyyən xərcləri azaldacaq və bu qurumların maliyyə-iqtisadi potensialını kifayət qədər genişləndirəcək. Bu da bələdiyyə üzvlərinin və qulluqçularının sosial təminatlarının yaxşılaşmasına, vətəndaşların bələdiyyə seçkilərinə və bələdiyyə qulluğuna marağının artırılmasına gətirib çıxaracaq və yüksəkixtisaslı kadrları bələdiyyə qulluğuna cəlb etməklə idarəetmədə müasir informasiya texnologiyalarının tətbiqi imkanlarını artırmaq mümkün olacaq. Nəticədə, bələdiyyə idarəetməsinin keyfiyyəti və səmərəsi yüksələcək, şəffaflıq və hesabatlılıq tam təmin ediləcək.



*– Qeyd olunanlarla bağlı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi yerli özünüidarəetmə orqanları ilə işi necə qurub, ötən dövrdə hansı təşkilati, maarifləndirici tədbirlər həyata keçirilib?*

– Bələdiyələrin işinin təşkilinə kömək və onlara metodoloji yardımın göstərilməsinin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi dövlət başçısının müvafiq fərmanları ilə Ədliyyə Nazirliyinə həvalə olunub və bu vəzifələrin icrası nazirliyin Bələdiyyələrlə İş Mərkəzi tərəfindən həyata keçirilir. Mərkəz tərəfindən bələdiyyələrə metodoloji yardımın göstərilməsi, onların maarifləndirilməsi məqsədilə il ərzində çoxlu sayda seminarlar keçirilib, bu tədbirlərdə xeyli bələdiyyə üzvü və qulluqçusu iştirak edib. Eyni zamanda bələdiyyə aktlarının hüquqi ekspertizası və müraciətlər üzrə araşdırma zamanı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 30-a yaxın tövsiyə və kargüzarlıq sahəsi ilə bağlı bir çox nümunələr hazırlanaraq göndərilib. Həmin tövsiyələr yerli büdcənin müzakirəsi, aktların inzibati nəzarət orqanına vaxtında təqdim edilməsi, bələdiyyə torpaqlarının idarə olunması, torpaq sahələrinin mülkiyyətə (icarəyə) ayrılması zamanı qiymətlərin bazar qiymətlərinə uyğunlaşdırılması, yerli vergi və ödənişlərin yığılması və digər məsələlərlə bağlı olub. Bu tövsiyələrdə qanunvericiliyin tələbləri izah edilib, yol verilmiş nöqsanların, qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha yol verilməməsinin zəruriliyi göstərilib.

*– Ancaq görünən odur ki, görülən təşkilati, maarifləndirici işlərə baxmayaraq, hələ də bələdiyyələrin fəaliyyətində nöqsanlar vardır və vətəndaşla yerli özünüidaretmə orqanı arasında yaranan mübahisələr bəzən aylarla, hətta illərlə həll edilməmiş qalır...*

– Bu orqanların yaradılmasından ötən dövr ərzində təkmilləşmə prosesi getsə də, təəssüf ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət işinin təhlili bələdiyyələr tərəfindən ciddi pozuntulara hələ də yol verildiyini göstərir. Bu nöqsanların əksəriyyəti torpaq qanunvericiliyinin pozulması, maliyyə vəsaitlərinin qanunla müəyyən olunmuş qaydada xərclənməməsi, yerli vergi və ödənişlərin yığılmaması, bələdiyyə işinin düzgün təşkil olunmaması və sairlə bağlıdır.

Qeyd edim ki, bir sıra bələdiyyələr tərəfindən aktlar inzibati nəzarət qaydasında baxılması üçün Ədliyyə Nazirliyinə vaxtında təqdim edilmir və yaxud qanunla müəyyən olunmuş müddətdən gec təqdim olunur. Bu isə özlüyündə inzibati məsuliyyət yaradır. Bu əsasla cari ildə belə pozuntuya yol vermiş 4 bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokollar tərtib edilərək müvafiq məhkəməyə göndərilib. Eyni zamanda bələdiyyə büdcəsini formalaşdıran əsas mənbələrdən olan əmlak və torpaq vergisinin bir çox bələdiyyə tərəfindən yerli büdcəyə ödənilməsi təmin edilmir. Bir çox vergiödəyicilərinin uçota alınmaması və vergi ödəməkdən yayınmalarına bələdiyyələr tərəfindən şərait yaradılır. Həmçinin torpaq sahələri hər hansı hüquqla (mülkiyyətə, icarəyə) fiziki və hüquqi şəxslərin istifadəsinə ayrılarkən qiymətlər bazar məzənnəsinə uyğun müəyyən olunmur. Bu da, nəticədə, bələdiyyə büdcəsinə xeyli miqdarda ziyan vurur. Bu kimi hallara qarşı Bələdiyyələrlə İş Mərkəzi tərəfindən araşdırmalar aparılır və bu qanun pozuntuları ilə bağlı artıq inzibati yox, cinayət xarakterli cəza tədbirləri nəzərdə tutulur.

Qanunvericiliyə əsasən bələdiyyə büdcəsindən pul vəsaiti yalnız bələdiyyə iclasının qərarı ilə ayrılır və bu qərarda həmin vəsaitin təyinatı, məqsədi və dəqiq miqdarı göstərilməlidir. Lakin bəzi bələdiyyələr tərəfindən pul xərclənməsi ilə bağlı qərarlar qanunvericiliyin tələblərinə uyğun qəbul edilmir. Bir daha qeyd edim ki, bələdiyyələrdə qanun pozuntularının qarşısının alınması, qanunçuluğun gücləndirilməsi məqsədilə tədbirlər ardıcıl surətdə davam etdirilir. Göstərilən köməklik və maarifləndirici söhbətlərə baxmayaraq, bələdiyyələrin fəaliyyətində haqlı şikayətlərə şərait yaradan nöqsanlara, bir sıra hallarda kobud qanun pozuntularına yol verilir.

*– Bələdiyyələrlə birbaşa, əlaqəli təşkilat kimi, bu sahədə müsbət dəyişikliklərin əldə olunması üçün gələcək fəaliyyət istiqamətlərini necə görürsünüz?*

– Yerli əhəmiyyətli məsələlərin tam həllinə nail olunması, vətəndaşların sosial problemlərinin həll edilməsi, sosialyönümlü layihələrin həyata keçirilməsi üçün bələdiyyələr zəruri maliyyə imkanlarına malik olmalıdırlar. Reallıqda isə əksər bələdiyyələrin mövcud büdcələri nəinki layihələrin həyata keçirilməsinə imkan verir, hətta cari fəaliyyətinin təşkilini belə ödəmir. Bu mənada, ən ciddi problemlərdən biri də vəsaitin yığılması və büdcənin formalaşması ilə bağlıdır. Yaranan çətinlik qanunvericiliklə bağlı deyil, əsas səbəb bir çox bələdiyyənin bu məsələyə soyuq münasibətilə əlaqədardır. Ona görə də bələdiyyə sədrləri öz vəzifələrinin icrasına ciddi əməl etməli, bələdiyyənin inkişafına çalışmalıdır.

Bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi, yerli (bələdiyyə) vergi və ödənişlərin yığılması işinin səmərəli təşkili məqsədilə mərkəzin əməkdaşları tərəfindən mütəmadi olaraq yerlərdə yerli vergi və ödənişlərin toplanması, vergiödəyicilərinin uçotunun düzgün aparılması, vergi ödəməkdən yayınanlarla bağlı qanunamüvafiq tədbirlərin görülməsi, gəlir və xərclər sahəsində şəffaflığın təmin olunması sahəsində bələdiyyələrə müvafiq köməkliklər göstərmək və eyni zamanda bu sahədə olan çatışmazlıqları araşdıraraq nəticəsi barədə ümumiləşdirmələr aparılması istiqamətində işlər həyata keçirilir. İnanırıq ki, bu sahədə görüləcək işlər nəticəsində bələdiyyə fəaliyyətində qanunçuluğun təmin edilməsi, qanun pozuntularının qarşısının alınması, bələdiyyə büdcəsinin yerli vergi və ödənişlər hesabına formalaşması işində müsbət nəticələr əldə olunacaq. Bu əsasda bələdiyyələr vətəndaşların bir sıra yerli əhəmiyyətli problemlərinin həlində öz imkanlarını daha da artıracaq.

Bələdiyyə sədrləri əhali arasında vergilərin ödənilməsi ilə bağlı geniş maarifləndirmə və təbliğat işi aparmalı, seçiciləri qarşısında hesabat yığıncaqlarını daim keçirməli, vergilərdən əldə olunacaq gəlirlərin vətəndaşları narahat edən yerli problemlərin həllinə yönəldiləcəyini bildirməlidirlər. Bir sözlə, sakinlərlə sıx əlaqə qurmadan, onlara vergi ödəmək mədəniyyəti aşılamadan, bələdiyyənin fəaliyyətini təbliğ etmədən vergiləri tam həcmdə yığmaq mümkün olmayacaq.

Hər bir kəs bələdiyyə fəaliyyətinin formalaşmasında iştirak etməli və bələdiyyədə şəffaflığın və hesabatlılığın artırılmasında ictimai nəzarətin gücləndirilməsinə dəstək göstərməlidir.

*– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik.*

**Nail ƏSGƏROV**

# Əlçatmaz zirvələrin pıçıltısı...



## Ulu Öndər Heydər ƏLİYEV:

*“ Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir... Ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar, – burada yaşıllıq azdır, – bu diyara xüsusi gözəllik verir..., bu, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi, insanlar da məğrurdurlar... ”*

Şərqin keçid qapısı adlandırılan Naxçıvan təkcə tarixi abidələri və zəngin mədəniyyəti ilə yox, həm də insanı ağuşuna alan təbiəti ilə ruhumuzu oxşamağı bacarır. Bu məkanda dağlar öz möhtəşəmliyi və ilhamverici təsiri ilə sanki insanı nağıllar aləmindəki uçan xalçanın üzərinə götürərək başqa bir aləmə aparır.

Bəzən gecə pəncərədən dağların zirvələrinə baxanda düşünürəm, nə bilmək olar, bəlkə də, dağlar göy üzündəki ulduzlara öz sevgisini elan etmək üçün bu qədər ucaya qalxıb. Naxçıvan dağları sərvətlər içərisində ən bənzərsizi və təbiətin möcüzələri içində ən misilsizidir. Bu dağlar gah Əmir Teymur kimi bir sərkərdəni yarı yolda qoyub, gah da Məmməd Araz kimi bir şairin ilham qaynağına çevrilib.



Bəzən səhər çağı dağları görmək mümkün deyil. Duman sanki yaşmaq misalı dağların simasını örtür. Baxışlar dağlar boyu hey getdikcə dayanmaq bilmir... Sanki dağlar Dədə Qorqud tək qopuzunu əlinə alır, qəlbimizdə olan atəşi və sevgini yenidən dastana çevirir...

Bəzən bu yurdun dağı Nuh Peyğəmbərin gəmisinə sinə gərir, bəzən isə qoyun-quzuların qaçıb mələşdiyi oylağa çevrilir...

Naxçıvan dağları təkcə gözəllik yox, həm də güc və sabitliyin rəmzidir. İnsan övladı bu həyatda özünü hər kəsdən yüksəkdə görmək istəyir.

Dağlar həm də bizə sevgini, dostluğu və təbiətə hörməti öyrədir. Nə bilmək olar, bəlkə də, bu dağlar aşiq olmayan bir kəsi belə dünyanın ən romantik adamı olmağa məcbur edir...

Naxçıvan dağları Zəngəzur, Dərələyəz və Alagöz dağ silsilələrinin davamı olaraq götürülür. Bu dağlar nadir bitki örtüyü üzərində dağ keçisi, qartal və bəbir kimi heyvanların da məskəninə çevrilib.

Bəzən Naxçıvanı xəyalımda hündür divarlarla əhatə olunmuş bir qala kimi təsəvvür edirəm.

Nəhəcir dağından Əshabi-kəhf qayalıqlarına, Haçadağdan Əlincə qalasına, Əlincə qalasından isə Naxçıvanın, təxminən, 250-dən çox dağını özündə birləşdirən bir qala və qalanın şah əsəri olan əzəmətli Qapıcıq dağı...

✍ **Rafiq TƏHMƏZ**



## Naxçıvanlı 9 yaşlı məktəbli İstanbulda keçirilən “STEAM AHEAD-2024” olimpiadasında qalib olub



Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdi Əsmənur Kərimli Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən “STEAM AHEAD-2024” olimpiadasının final mərhələsində iştirak edərək riyaziyyat fənni üzrə bürünc medala layiq görülüb.

Qeyd edək ki, Əsmənur Kərimli 2024-cü ilin aprel ayında keçirilən SASMO-2024 olimpiadasının qalibi kimi “STEAM AHEAD-2024” olimpiadasına qatılıb.

Məlumat üçün bildirək ki, olimpiadanın final mərhələsində 21 ölkədən 1254 məktəbli iştirak edib.

### *İtmişdir*

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin balansında olan 1984-cü il buraxılışlı, QAZ-66 markalı, 85 AC 115 qeydiyyat nişanlı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq kənd sakini Niftəliyev Müslüm Fərəməz oğlunun adına olan JN-734 nömrəli, 10211018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini İbrahimov Xəlil İbrahim oğlunun adına verilmiş JN-97 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Teymurov Elşad Seyfulla oğlunun adına olan JN-678 nömrəli, 10207018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Milax kənd sakini Zeynalov Hafiz Cəbrayıl oğluna məxsus JN-176$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Dəstə kənd sakini Quliyev Əyyub Qulu oğlunun adına olan JN-775 nömrəli, 10700018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Quliyeva Səriyyə Cəlil qızının adına olan JN-583$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində Tarverdiyev Məzahir Lətif oğlunun adına olan JN-456$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Əliyeva Yazgül Hüseyin qızının adına olan 102013005829 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Məhəmməd Həsənqulu oğlunun adına olan JN-1488$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qabıllı kənd sakini Həsənov Nazim Əli oğluna məxsus JN-148$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri Cəfərov Natiq Yəhya oğluna məxsus JN-386$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi publik hüquqi şəxs tərəfindən Ağalarov Sultan Əli oğlunun adına 2021-ci ildə verilmiş ocaqçı sertifikatı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 369
Nömrəyə məsul: Nail Əsgərov, Rafiq Təhməzov, Aygün Rüstəmova
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.